

“Bütün dünya bilsin: Azərbaycanlı qardaşlarımızın yanındayıq!"

2

# “Bu genişmiqyaslı təxribat Ermənistan tərəfindən törədilib”

2



*Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 14-də Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarı qəbul edib.*

Səs

№ 167 (6608) **15 sentyabr** 2022-ci il. **Qiyməti 60 qəpik**

# Bakı erməni-bolşevik işğalından necə azad edildi?



5

## ŞƏHİDLƏR ÖLMƏZ, VƏTƏN BÖLÜNMƏZ!



8

## Məktəb həyatına ilk çağırış - ilk zəng



11

## Yenidən qapanmalar olacaq?



10

## RSK Qarabağ ermənilərinin yeni Laçın yolundan istifadəsinə qadağa qoydu?



13

## 58 erməni əsir alındı: erməni generalı ağ bayraq qaldırdı!





16

## Qəbizliyin qarşısını ən asan bu yolla ala bilərsiniz? - VACİB MƏQAMLAR

*Qəbizlik bağırsaq hərəkətlərinin azalması ilə meydana gələn və boşalma sisteminin düzgün işləməməsi nəticəsində yaranan bir problemdir.*



## Əli Kərimli, sən ermənisən, yoxsa müsəlman?!

10

*Sentyabrın 12-dən 13-ə keçən gecədən etibarən cəbhənin Ermənistan və Azərbaycan arasında delimitasiya və demarkasiya olunmamış sərhəd ərazilərində baş vermiş erməni təxribatının...*

# “Bu genişmiqyaslı təxribat Ermənistan tərəfindən törədilib”



*Azərbaycan Prezidenti İlham Əliyev Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsini qəbul edib*

***Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 14-də Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarı qəbul edib. Toivo Klaar sentyabrın 12-dən 13-nə keçən gecə dövlət sərhədində baş vermiş gərginliklə bağlı narahatlığını ifadə edib, bu xüsusda Avropa İttifaqı rəhbərliyinin Ermənistanın baş naziri və Azərbaycan Prezidenti ilə telefonla danışdığını diqqətə çatdırıb.***

Dövlətimizin başçısı bu genişmiqyaslı təxribatın məhz Ermənistan tərəfindən törədildiyini qeyd edərək, buna görə bütün məsuliyyətin bilavasitə Ermənistanın siyasi-hərbi rəhbərliyinin üzərinə düşdüyünü bildirib. Prezident İlham Əliyev Azərbaycanın Brüsseldə aparılmış müzakirələrin davamı olaraq sülh gündəliyini dəstəklədiyini vurğulayıb. Dövlətimizin başçısı həmçinin Azərbaycanın vəziyyətin sabitləşdirilməsi və gərginliyin aradan qaldırılması üçün zəruri addımlar atmasına baxmayaraq, əldə olunmuş atəşkəsin Ermənistan tərəfindən pozulmasının davam etdiyini bildirib.

# 30 illik uğurlu əməkdaşlıq



*Prezident İlham Əliyev Dünya Bankının Avropa və Mərkəzi Asiya üzrə regional vitse-prezidentini qəbul edib*

Prezident İlham Əliyev sentyabrın 14-də Dünya Bankının Avropa və Mərkəzi Asiya üzrə regional vitse-prezidenti Anna Byerdeni qəbul edib. Söhbət zamanı Azərbaycan ilə Dünya Bankı arasında 30 illik uğurlu əməkdaşlığın həyata keçirildiyi məmnunluqla vurğulanıb.

Görüşdə gələcək layihələr və Dünya Bankının Azərbaycan hökumətinə dəstəyi ilə bağlı məsələlər müzakirə olundu, strateji sahələrdə, o cümlədən enerji, kommunikasiya sahələrində və Qarabağın bərpasında Dünya Bankının iştirakı və tərəfdaşlığın daha gücləndirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb.

# “Bütün dünya bilsin: Azərbaycanlı qardaşlarımızın yanındayıq!”



***Dost və qardaş Azərbaycanın Vətən torpaqlarının müdafiəsi üçün apardığı mübarizədə verdiyi son şəhidlərimizə Allahdan rəhmət diləyirəm. Ermənistanın Azərbaycanın Zəfəri il nəticələnən müharibənin ardından əldə olunan anlaşmanın pozulması nəticəsində meydana gələn bu vəziyyəti qəbuledilməz hesab edirik. Hər zaman olduğu kimi, bu hadisələrdə də azərbaycanlı qardaşlarımızın yanında olduğumuzu bütün dünya bilməlidir.***

AZƏRTAC xəbər verir ki, bu fikirləri Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bildirib.

Qarabağ savaşından sonra imzalanan anlaşmanın şərtlərini yerinə yetirmədiyi kimi, mütəmadi olaraq aqressiv davranış nümayiş etdirən Ermənistan tərəfi üçün bu münasibətin əlbəttə ki, nəticələri olacaq. Ümidimiz Ermənistanın bu səhv yoldan bir an əvvəl dönməsi, anlaşmanın şərtlərini sürətlə yerinə yetirməsi, vaxtını və enerjisini sülhü gücləndirmək istiqamətində istifadə etməsidir. Bir daha şəhidlərimizi rəhmətlə yad edir, yaralılarımıza sağlamlıq diləyirəm. Qardaşım Prezident İlham Əliyev başda olmaqla bütün Azərbaycan xalqına başsağlığı verirəm.

# Dünya mediası erməni təxribatından yazır






Matteo Carnieletto
Fizuli (Azerbaigian)

UN ALTRO FRONTE SPAVENTA L'EUROPA

**Azerbaigian-Armenia, una tregua fragile**

*Rimpallo di responsabilità sugli attacchi. Doppia mediazione Usa-Russia*

Il posto di blocco che apre la strada verso il Karabakh è un via vai di mezzi militari e civili. Si alternano camion, moderni suv delle compagnie che si stanno occupando delle infrastrutture della regione (innanzitutto Azersu e Azerenerji) e vecchie auto sovietiche che sfrecciano sull'asfalto.

Quando arriviamo a Fizuli sembra tutto normale anche se, poche ore prima, la guerra tra Azerbaigian e Armenia è tornata ad infiammarsi. Quello che è accaduto tra i due eserciti che si fronteggiano da decenni non è ancora chiaro. Baku sostiene di esser stata attaccata da Erevan. E viceversa. Come spesso accade da queste parti, è impossibile sapere chi ha premuto il grilletto per primo. Restano così solamente le due versioni dei contendenti, come sempre discordanti. «Alcune posizioni, rifugi e roccaforti delle forze armate azere nelle regioni di Dashkasan, Kalbajar e Lachin sono state sottoposte a un intenso fuoco da parte delle unità dell'esercito armeno con armi di vario calibro, compresi mortai. Di conseguenza, si sono registrate perdite tra il personale e danni alle infrastrutture militari», fanno sapere da Baku. Erevan sostiene invece che gli azerbaigiani avrebbero condotto dei bombardamenti in tre diverse direzioni, utilizzando veicoli senza pilota, probabilmente i potenti droni turchi Bayraktar.

Per alcune ore si è temuto che gli scontri potessero degenerare e che una nuova guerra, come quella dell'autunno del 2020, potesse iniziare. Ma il cessate il fuoco - raggiunto anche grazie all'intervento di Mosca che ha chiesto che venga attuato in modo integrale - ha cancellato ogni incubo del passato e tutto, in questa terra martoriata, è tornato come prima.

Fizuli, l'ingresso del Karabakh, ci accoglie con i suoi campi aridi. Un tempo erano vigne rigogliose, ma adesso entrarci è impossibile. Restano solo, come tante sentinelle ancora in piedi, i pali che un tempo reggevano i frutti. Qui non cresce più nulla: l'area infatti è stata minata. «È il primo problema che stiamo affrontando - spiegano le autorità azerbaigiane - ma non è un compito facile perché ci sono chilometri e chilometri quadrati di campi minati che ci impediscono di far tornare la vita».

Riconquistata nel 2020, Fizuli sta lentamente tornando alla normalità, anche se la città vecchia è completamente distrutta e degli edifici storici non resta più nulla. La si può guardare solamente da lontano, dalla struttura costruita in fretta e furia per l'arrivo del presidente Ilham Aliyev dopo la liberazione. «Lo vedi quel cartello laggiù? Non puoi andare in città perché il rischio di saltare su una mina è troppo alto».

In soli otto mesi Baku ha costruito a Fizuli un nuovo aeroporto che verrà inaugurato a breve. Si sta già lavorando a un nuovo distretto, iper tecnologico e sostenibile, per accogliere gli abitanti della città. Le ruspe vanno e vengono dalle montagne di sabbia e si muovono come tante formiche laboriose.

Poco distante c'è quello che resta di un cimitero. Le lapidi sono state completamente distrutte. Un tempo c'erano marmi neri e bianchi. Ora nulla. Solo la desolazione. «Gli armeni lo hanno fatto per tre ragioni: rubare i marmi per usarli come scalini e avere così sempre il nostro popolo sotto i loro piedi; per rubare i denti d'oro dei morti, un vezzo durante l'epoca sovietica e per il semplice gusto di farlo».

Ai defunti dei decenni passati, spesso maltrattati pure da morti, si aggiungono quelli delle ultime ore. Ma da queste parti si spera che, almeno loro, possano riposare in pace.

**İordaniyanın ”Nayruz” informasiya agentliyi Azərbaycanın bu ölkədəki diaspor təşkilatının Ermənistanın son təxribatları ilə bağlı bəyanatını yayıb. Belə ki, Azərbaycan diasporunun İordaniya üzrə əlaqələndiricisi Zümrüd Dadaşovanın imzası ilə azərbaycanlı icması adından yayılan bəyanatda Ermənistanın son təxribatları barədə ətraflı məlumat verilib. Beynəlxalq ictimaiyyəti təcavüzkar siyasətə son qoyulması üçün Ermənistana təzyiq göstərməyə çağıran diaspor təşkilatı qeyd edib ki, ermənilər 2020-ci ildə imzalanmış üçtərəfli Bəyanatda təsbit olunmuş öhdəlikləri yerinə yetirməkdən boyun qaçırır, Azərbaycanın sülh və regional əməkdaşlıq təşəbbüsləri fonunda yeni fitnələrə əl atır.**

Bundan başqa İtaliyanın nüfuzlu ”Il Giornale” qəzetinin ”Insideover” analitik-informasiya portalında Azərbaycan-Ermənistan sərhədində baş verən gərginlik barədə məqalə dərc olunub. Portalın baş redaktoru Matteo Karnielettonun müəllifi olduğu məqalədə ötən günlərdə dövlət sərhədində gərginliyin yenidən artığı və döyüş toqquşmasının baş verdiyi vurğulanıb.

İşğaldan azad olunan ərazilərimizdə, o cümlədən Füzuli rayonunda müşahidə etdiklərini qələmə alan müəllif Qarabağda yeni yolların çəkildiyini diqqətə çatdıraraq bildirib: ”Ərazidə yük maşınları, rayonun infrastrukturunun qurulmasında fəaliyyət göstərən şirkətlərin (”Azərsu” və ”Azərenerji”) müasir ”off-road” və köhnə sovet avtomobilləri var idi. Biz Füzuliyə çatanda hər şey normal görünürdü, baxmayaraq ki, bir neçə saat əvvəl Azərbaycan ilə Ermənistan arasında gərginlik yenidən alovlanmışdı. On illərdir qarşı-qarşıya qalan iki ordu arasında nə baş verdiyi bizə hələ tam aydın deyildi. Bakı İrəvan tərəfindən hücuma məruz qaldığını bildirir”.

Yazıda Müdafiə Nazirliyinin mətbuat xidmətinin məlumatına istinad edilərək qeyd olunur ki, Azərbaycan Ordusunun Daşkəsən, Kəlbəcər və Laçın rayonlarındakı bəzi mövqeləri və dayaq məntəqələri Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən müxtəlif çaplı silahlardan, o cümlədən minaatanlardan intensiv atəşə tutulub. Nəticədə şəxsi heyət arasında itkilər var, hərbi infrastruktura ziyan dəyib.

Füzuli ilə bağlı təəssüratlarını bölüşən Matteo Karnieletto bildirir: ”Qarabağın qapısı sayılan Füzuli bizi quraq çölləri ilə qarşılayır. Bir vaxtlar burada yamyaşıl üzüm bağları olub, indi isə əraziyə daxil olmaq mümkün deyil. Lakin bir zamanlar meyvə ağaclarına bərkidilən dirəklər hələ də ayaqda duran keşikçilər kimi qalır. Artıq bu ərazilərdə heç nə bitmir: ərazi faktiki olaraq minalarla doludur. Bu, bizim üzləşdiyimiz ilk problemdir. Lakin ərazinin minalardan təmizlənməsi asan məsələ deyil. Çünki burada kvadratkilometrlərlə minalanmış ərazi var”.



Zumrud Dadashova
Coordinator of the Azerbaijani diaspora in Jordan

Statement of the Azerbaijani diaspora regarding the large-scale sabotage attacks committed by the Armenian army on September 12, 2022

بيان الشتات الأذربيجاني بشأن الهجمات التخريبية واسعة النطاق التي ارتكبها الجيش الأرميني في ١٢ سبتمبر ٢٠٢٢

[illegible]

زمردة داداشافا




*Azərbaycanın qələbəsi ilə nəticələnən 44 günlük müharibənin sonunda Ermənistan tərəfi məğlubiyyətə, kapitulyasiya sənədinə imza atdı. Məğlubiyyətlərini etiraf edərək təslim olması və tamamilə məhv olmaması üçün Ermənistan tərəfi az qala bütün dünyaya, ən inkişaf etmiş ölkələrə əl açıb yalvarmaqda tərəddüd belə etmədi və heç nə olmamış kimi təslimiyyətini də etiraf etdi. Az qala iki ilə yaxın müddətdir ki, danışıqların, razılaşmaların şərtlərinə əməl etməkdən boyun qaçıran, vəd etdiyi delimitasiya və demarkasiya prosesini, sülh danışıqlarını uzatmağa çalışan işğalçı ölkə hər dəfə təxribatlara əl atmaqla riyakarlıq nümayiş etdirir.*

# Erməni təxribatları fonunda DİPLOMATİK RİYAKARLIQLAR

Müharibədə uduzan, məğlubiyyətini etiraf edən, təslimçilik sənədinə imza atan, məcbur qalaraq razılaşmalara gedən hansısa ölkə bunun ardından heç zaman Ermənistan kimi siyasi həyasızlıq etməyib və törətdikləri təxribatların fonunda bu ölkənin etdiklərinin bəşər tarixində analoqu, oxşarı olmayıb. Bütün yaramazlıqlara əl atan, terrorçuluğu dövlət siyasəti olaraq qəbul edən Ermənistan bir-birinin ardınca təxribatlar törətməsinin fonunda hələ bir utanmadan da Azərbaycanı günahkar kimi qələmə verməyə çalışır və bu həyasızlığa ad vermək belə çox çətindir. Əvvəlcə təxribat törədib, sonra da dünyaya car çəkərək qarşı tərəfin günahkar olduğunu bəyan etmək erməni riyakarlığının cəmi bircə nümunəsidir, amma onların riyakarlıqları cəmi bircə dənə deyil.

Bir ölkə yalanlarla, böhtanlarla, iftiralarla mövcudluğunu nə qədər qoruya bilər və bu şəkildə nə qədər davam edə bilər? Maraqlıdır, ifadələrinin uydurma olduğunu hamıdan daha yaxşı özü bilən bir toplum nəyə ümid edir? Məgər bütövlükdə erməni cəmiyyəti yalanlarının ayaq tutub yeriməyəcəyini dərk etməyibmi? Əgər dərk edibsə, niyə riyakarlığını davam etdirir və nə səbəbə bundan çəkinmir? Ermənistan bütün qüvvəsi ilə Azərbaycanla müharibədə 44 gündən artıq davam gətirə bilmədiyi halda, indi yox dərəcəsində olan silahlı qüvvələri, dağınıq, pərakəndə şəkildə olan separatçıları, terrorçuları ilə nə əldə edə bilər? Əlbəttə ki, heç nə əldə edə bilməz və bunu hamıdan yaxşı ermənilər özləri bilirlər, amma öz mənfur əməllərindən əl çəkmirlər. Daim təxribatlara əl atan bu toplum ancaq çirkin niyyətlərinin həyata keçməsi arzusundadır və görünür dünyadan da kömək, imdad, ən azından dəstək umurlar. Hər dəfə törətdikləri təxribatların ardınca qarşılaşdıqları əks həmlə və darmadağın olmaları fonunda baş nazir Nikol Paşinyanın dünyanın bir çox ölkə başçılarına davamlı olaraq zəng etməsi, telefonun dəstəyindən asılıb qalması bunun real təsdiqidir ki, bütün dünyadan yardım gözləyir, ən azından buna ümid edirlər. Bir çox beynəlxalq təşkilatların, dünyanın bir çox ölkələrinin onların bəd əməllərinə, təxribatlarına reaksiya verməməsi, müşahidəçi mövqe nümayiş etdirməsi isə görünür terrorçuları, separatçıları, aranı qarışdırmaq istəyənləri ruhlandırır. Deməli, separatçılığa, terrorçuluğa, təxribatçılığa dünyanın bütün beynəlxalq təşkilatları, bir çox inkişaf etmiş dünya dövlətləri tərəfindən kəskin şəkildə dur deyilməməsi, qarşısının alınması üçün sanksiyalar tətbiq edilməməsi də öz növbəsində riyakarlıq anlamına gəlir. Çünki istər beynəlxalq təşkilatlar, istərsə də inkişaf etmiş dünya dövlətinin bir çoxlarının özlərinə sərf edəcəyi məqamda ortaya atıldıqlarının, hətta sankiyalar belə tətbiq etdiyinin Rusiya-Ukrayna müharibəsi fonunda elə bütün dünya ictimaiyyəti də şahididir.

Maraqlıdır, nəyə görə, hansı səbəbə Ermənistan tərəfi vaxtaşırı təxribatlara əl atır? Torpaqlarımızı yenidən işğal etmələrinə zərrə qədər ümidi qalmayan bu məğlub ölkənin məhz rüsvayçı məğlubiyyəti fonunda təxribat törətməkdə məqsədi nədir? Təbii ki, məqsədləri prosesi uzatmaqdan, sülh prosesinə maneçilik törətməkdən ibarətdir və buna da hansısa yolla nail olmağa çalışırlar. Çünki Ermənistan tərəfi yaxşı başa düşür ki, bu ilin sonuna qədər imzalamalı olduğu sülh müqaviləsindən sonra Azərbaycanın sərhədlərini, ərazi bütövlüyünü tanımalı, torpaq iddiasından əl çəkməlidir. Elə buna görə də, prosesi uzatmaq, sülh prosesinə maneçilik törətmək üçün yol olaraq bildikləri, daha doğrusu, təsəvvür etdikləri məhz təxribatlardır və bu onların son riyakarlıqları olmasa da, son ümididir.

Təxribatları özü törədib, özü də dünyaya səs salaraq, hücuma məruz qaldığını, əzildiyini bildirmək erməni xislətində yeni təzahür edən, dünyaya tanış olmayan davranış deyil. Hayların həyasızlığı tarix böyü diqqətdən yayınmayıb və hər dəfə bir təxribat, türk əsilli insanlara qarşı soyqırım törətdikdən, ardınca da qarşılaşdıqları məğlubiyyətdən sonra oyun qurmaları, guya özlərinin əzildikləri, haqlarının tapdalandığı barədə dünyaya hay salmaları da dünya ictimaiyyəti üçün sirr deyil. Ermənilər bu həyasızlığı, vəhşicəsinə etdikləri 31 mart soyqırımından sonra da, törətdikləri Xocalı faciəsindən sonra da ediblər və indi də eyni şəkildə riyakarcasına həmin ənənəni davam etdirməyə çalışırlar.

Xatırladaq ki, məhz ötən əsrin əvvəllərində, 31 mart tarixində bütün Azərbaycanda törətdikləri vəhşiliklərdən, insanlığa sığmayan cinayətlərdən, türk əsilli insanlara qarşı soyqırımdan sonra haylar bütün dünyaya hay saldılar ki, onlar özləri soyqırıma məruz qalıblar. Bu, yəni belə riyakarlıqla hay salmaq yalnız erməni həyasızlığı ilə mümkün ola bilərdi, çünki eyni ilə indiki kimi, onlar bizim torpaqlarımızda soyqırıma məruz qaldıqlarını iddia edirdilər. Sual oluna bilər ki, Azərbaycana məxsus torpaqlarda hayların nə işi vardı? Əgər, onların olmasa da belə, heç olmasa məskunlaşdıqları torpaqlarda, məsələn, Bakıda deyil, İrəvanda soyqırıma məruz qaldıqları barədə yalan-doğru iddia etsəydilər, dərd yarı idi, amma həyasızlıq və riyakarlıqları o həddə çatıb ki, məhz bizə məxsus olan ərazilərdə, xüsusilə, paytaxt şəhərimizdə bunun baş verdiyini utanmadan iddia edirlər. Ola bilsin, ermənilər zənn edirlər ki, yalandan dünyaya belə hay-küy salmaq, həyasızcasına yalan danışmaq bir siyasət, bir diplomtiyadır, amma əslində bu, diplomatiya yox, diplomatik riyakarlıqdır.

Məsələ burasındadır ki, erməni riyakarlığına müşahidəçi mövqe sərgiləyənlər də onların tayı kimi görünür. Bu zamana qədər, eləcə də hal-hazırda erməni riyakarlığına, erməni əsilli separatçıların, terrorçuların törətdikləri təxribatlara sərt reaksiya göstərməmək, bəd əməllərini pisləməmək, ən azından bunun əleyhinə bəyanat belə verməmək də riyakarlıqdır ki, biz bunu da bir sıra beynəlxalq təşkilatların, dünyanın aparıcı və inkişaf etmiş bəzi dövlətlərin timsalında da görürük. ATƏT-in Minsk Qrupu deyilən qondarma, artıq ölü sayılan qurum nə 30 il ərzində səsini çıxarmadı, nə də torpaqlarımızı öz gücümüzə işğaldan azad etdikdən sonra erməni separatçılarının törətdikləri terrorlara, təxribatlara görə fikir belə bildirmədi, hansıki bunun da adı elə riyakarlıqdır.

BMT kimi bir beynəlxalq təşkilatın 4 məlum qətnaməsi artıq bütün dünyaya bəllidir və bu qətnamələrin icrası istiqamətində də həmin o 30 illik işğal müddətində hansısa qurum, hansısa fövqəl dövlət təşəbbüskar kimi belə çıxış etmədi və buna da riyakarlıqdan başqa ad vermək olmur. Görəsən, nəyə görə bircə dənə erməni əsilli separatçının burnu qanayanda Fransa kimi bir Avropa ölkəsinin prezidenti Makron əl-ayağa düşür, amma erməni təxribatları fonunda Azərbaycanın dinc əhalisinin, mülki əhalisinin yaşadığı ərazilər atəşə tutulanda, azərbaycanlılardan həyatını itirənlər olnda ağzına su alır, susur və bu da riyakarlıq deyilmi? Riyakarlıqdır, özü də xalisindən. Erməni əsillilərin qarşısında özünü yaxşı göstərməyə hesablanan riyakarlıqdır. Digər bəzi Avropa ölkələri insan haqları deyib barbar bağırır, amma ermənilər bunu etdikdə susurlarsa, deməli riyakarlıq edirlər. Təbii ki, onların bu susqunluqları erməni lobbisi ilə münsibətlərin pozulmamasına hesablanıb və bir növ bunu da diplomatiya sayırlar, amma bu da diplomatiya deyil, diplomatik riyakarlıqdır.

Bütün dünyada guya insan haqları, söz azadlığı, demokratiya və ədalətin carçısı kimi özünü göstərməyə çalışan ABŞ erməni terroruna, təxribatlarına görə niyə səsini çıxarmır? Təxribat törədənlər dinc, mülki Azərbaycan vətəndaşlarının haqlarını tadalamırlarmı, azad-firavan yaşamalarına mane olmurlarmı ki, Amerika buna reaksiya vermir? Maraqlıdır, görəsən ABŞ özünə rəqib hesab etdiyi Rusiyanın tamamilə xəritədən silinməsi arzusu ilə Ukraynaya hər mənada dəstək göstərirsə, guya haqları tapdalanan ukraynalıları müdafiə edirsə, paralel olaraq erməni təxribatlarının qurbanı olan azərbaycanlılara görə bunu etmirsə, bu da riakarlıq sayılmırmı? Riyakarlıq sayılır və buna başqa ad da verilə bilmir. Deməli, Rusiyanı özünə düşmən bəlləyən ABŞ, ruslara qarşı döyüşən, bu yolda həlak olan ukraynalıları müdafiə edirsə, özünə düşmən hesab etməyən, əksinə, oyunlarına alət bildiyi erməni əsilli terrorçuların, separatçıların təxribatları nəticəsində azərbaycanlıların həyatını itirməsinə dəfələrlə göz yumursa, diplomatiya kimi bildiyi diplomatik riyakarlıq nümayiş etdirir, özü də açıq-aşkar bir şəkildə.

Ümumiyyətlə, Ermənistanın təxribatları fonunda diplomatik riyakarlıqlar saysız-hesabsızdır və kifayət qədər belə faktlardan sadalamaq olar. Belə görünür ki, həm Ermənistan özü diplomatik riyakarlıq edir, həm də buna rəvac verən, göz yuman, əks reaksiya verməyən, müşahidəçi mövqe sərgiləyən beynəlxalq təşkilatlar bu riyakarlığa qoşulur. Hər bir halda, riyakarlığın adı birdir və istər diplomatik olsun, istərsə də digəri, riyakarlıq etmək ən azından heç kimə baş ucalığı gətirəcək deyil, əksinə, elə riyakarlıqdır.

***İnam Hacıyev***

# "Şuşa İli"

## Böyük Qayıdışın xəyaldan reallığa çevriləcəyi il

***Düz 30 il əvvəl, 1992-ci ilin may ayında müstəqilliyimizin ağır günlər, hakimiyyət uğrunda çəkişmələr Ermənistanın Azərbaycan torpaqlarını işğal etmək planlarını həyata keçirə bilməsi üçün əlverişli zəmin yaratdı və Şuşa, Laçın işğal olundu. AXC-Müsavat cütlüyü siyasi hakimiyyətə gəlmək üçün milli xəyanətə qol qoydu. Ancaq bu gün - 30 ildən sonra isə dövlətimiz və xalqımız ən şərəfli günlərini yaşayır, tariximizin qürur doğuran səhifələri yazılır.***

İndi Şuşa da azaddır, Laçın, Kəlbəcər də, Ağdam da və digər işğal olunmuş rayonlar da. Hazırda işğaldan azad olunmuş torpaqlarımız bərpa olunur, yenidən qurulur. Qarabağın Azərbaycana məxsusluğunu mədəniyyət müstəvisində bəyan edən "Xarıbülbül" festivalı artıq bərpa olunub.Azərbaycan Prezidenti İlham Əliyevin 2022-ci ilin "Şuşa İli" elan edilməsi haqqında Sərəncamı xalqına, torpağına, Vətəninə olan sonsuz sevgisinin təcəssümü, Azərbaycanın hərb meydanı ilə yanaşı, diplomatiya müstəvisində də qələbəsinin təsdiqi və dünyaya təqdimatı, Zəfərimizin tarixi təntənəsidir. Ən əsası isə, Şuşanın tarixi kimliyini bir daha özünə qaytarılması, "Şuşasız Qarabağ, Qarabağsız Şuşa yoxdur" deyən dahi Heydər Əliyevin bu arzusunun u gün Prezident İlham Əliyev "Şuşasız işimiz yarımçıq qalar" deyərək reallaşdırılmasıdır. Bu "Dəmir yumruq" gücündən - Qarabağımızın, Şuşamızın dirçəlişinin reallaşdırılmasıdır. Bu, Qarabağın əsl sahibinin kim olduğunu dünyaya daha geniş şəkildə təqdim edilməsidir. Bu...

### Qalib Liderin qətiyyətinin və uzaqgörənliyinin, "Əziz Şuşa, biz səni dirçəldəcəyik!" sözü ilə əməlini üst-üstə düşməsinin reallığıdır

Bəli, Müzəffər Ali Baş Komandan, Böyük Sərkərdə, Prezident İlham Əliyevin 19 illik gərgin əməyinin nəticəsində formalaşan güclü Ordumuz 30 il işğal altında qalan torpaqlarımızı 44 gün ərzində azad etdi, ölkəmiz öz ərazi bütövlüyünü təmin etdi, "Şuşasız Qarabağ, Qarabağsız Şuşa yoxdur" deyən Ulu Öndər Heydər Əliyevin arzusunu da bu gün Prezident İlham Əliyev "Şuşasız işimiz yarımçıq qalar" deyərək reallaşdırdı. Və İkinci Qarabağ savaşını "Dəmir yumruq"la qazanan Ali Baş Komandan İlham Əliyev "dəmir iradə" ilə işğaldan azad edilən şəhər və rayonları, qəsəbə və kəndləri bərpa edir, yenidən qurur və çox böyük layihələr reallaşdırır.Və bir sözlə, bu ilin bu ilin Şuşa ünvanlı, Şuşa hədəfli olması ilə dövlət başçımız həm xalqımızın, həm də dünya ictimaiyyətinin diqqətini bir daha bu qədim Azərbaycan şəhərinə yönəltmişdir. Bununla Azərbaycan dövləti Qarabağın qədim Azərbaycan torpağı və Şuşanın da əsl Azəraycan şəhəri olduğunu bir daha dünyaya çatdırır. Prezident İlham Əliyevin "Şuşa ili" çağrışı qədim Şuşa şəhərinin işğaldan azad edildikdən sonra milli memarlıq ənənələri əsasında yenidən bərpa edilməsinə geniş meydan açacaqdır. Çünki Şuşa Azərbaycan üçün, sadəcə, bir şəhər deyil, xalqımızın maddi-mənəvi dəyərlərini özündə əks etdirən rəmz, əziz məkanıdır. Belə ki, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tərəfindən şəhərin yenidən qurulması, abadlaşdırılması diqqət mərkəzində saxlanıldı. Yolların, tarixi abidələrin bərpasına, şəhərin su, elektrik təchizatının qaydaya salınmasına xüsusi önəm verildi. Bu, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Şuşa şəhərinə dəfələrlə etdikləri səfərlər bir daha öz təsdiqini tapdı. Qısa müddətdə Şuşanın Baş planının hazırlanması, şair Molla Pənah Vaqifin büstünün və muzey-məqbərə kompleksinin öz ilkin görkəminə qaytarılması, Bülbülün ev-muzeyinin və Üzeyir Hacıbəylinin heykəlinin




*İlham Əliyev: "Biz Şuşanı dünyanın ən gözəl şəhərlərindən birinə çevirməliyik və çevirəcəyik"*

açılışları, habelə buradakı tarixi, dini və memarlıq abidələrinin bərpası prosesi ölkəmizin mədəniyyət paytaxtındakı kompleks işlərin tərkib hissəsidir. Qısa müddətdə Cıdır düzündə "Xarıbülbül" musiqi festivalının və Vaqifin möhtəşəm məqbərəsi önündə Vaqif Poeziya Günlərinin təşkili ənənəsinin bərpası, Şuşa şəhərinin regionun diplomatiya mərkəzinə çevrilməsi bir daha göstərdi ki, Şuşa sürətlə dirçələrək əvvəlki dolğun mədəni həyatına qovuşmaq yolundadır.Beləliklə, bütün bunlar bir daha onu deməyə əsas verir ki, Şuşada beynəlxalq əhəmiyyətli toplantıların, xüsusi iclasların keçirilməsi böyük siyasi və rəmzi məna daşıyır. Ən əsası ona görə ki, Şuşaya səfər edən xarici diplomatlar, beyin mərkəzləri, dövlət xadimləri Füzuli Hava Limanına endikdən sonra "Zəfər yolu" ilə irəliləyib erməni vandalizminə və Azərbaycanın öz qüdrətinə bu torpaqlarda apardığı yenidənqurma işlərinə şahidlik edirlər. Bu da Prezident İlham Əliyevin yaratdığı yeni reallıqların dünyaya yayılması üçün mühüm addımlardan biri kimi qiymətləndirilməlidir.Bir sözlə, bu gün Şuşa Azərbaycanın mədəniyyət paytaxtı olmaqla bərabər, qarşıdan gələn dövr ərzində beynəlxalq münasibətlərin, mühüm məsələlərin müzakirə olunduğu siyasi-diplomatik mərkəz rolunda çıxış edir. Həmçinin, belə bir qısa vaxtda dünyada analoqu olmayan layihələrin gerçəkləşdirilməsi Azərbaycan dövlətinin gücünü, onun malik olduğu potensialı və ən əsası Prezident İlham Əliyevin qətiyyətini bütün dünyaya göstərdi və bu gün Şuşa yenidən qurulur, özü də daha möhtəşəm, daha əzəmətli.

***RƏFİQƏ KAMALQIZI***

---

# "Ermənilər yalanı siyasətə çevirib"



"Son 30 il ərzində Ermənistan və Azərbaycan arasında konflikt yaranandan sonra Azərbaycan tərəfi Ermənistanın hərəkətlərini daha diqqətlə izləyir". Bu sözləri SİA-ya açıqlamasında Jurnalistlərin Həmkarlar İttifaqının sədri, Media eksperti Müşfiq Ələsgərli deyib.

Onun sözlərinə görə, bu müşahidələr nəticəsində bir fakt ortaya çıxır ki, ermənilər yalançılığı siyasətə çevirib: "Yeni , yalan danışaraq yalnış informasiya vermək Ermənistanın dövlət siyasətidir. Onlar bu yalanı həm özlərinin daxili ictimaiyyəti üçün danışır, həm də beynəlxalq ictimaiyyətə yalan açıqlamalar verirlər. Eyni zamanda mübarizə apardıqları qarşı tərəf üçün də bu yalanlardan istifadə edirlər. İkinci Qarabağ savaşının gedişatı zamanı yadımızdadır ki, onlar Ermənistan cəmiyyətinə də yalan danışaraq əhalidə çaşqınlıq yaratmışdılar. Ermənistan mediası sonradan Ermənistan hakimiyyətinin danışdığı yalanları bir-bir araşdıraraq ortalığa qoydu. Bu nümunəni göstərməklə bildirmək istəyirəm ki, Ermənistanda və erməni şəbəkəsində yalan özü bir siyasi prosesdir. Bütün fəaliyyətləri, tarixləri, siyasətləri, informasiyaları da yalan üzərində qurulub. Bu yalanı onlar son zamanlar gedən proseslərdən sonra iki qat artırıblar. Ermənistan cəmiyyəti sakitləşdikcə ayılır və məğlubiyyətin acısını yaşayır. Ermənistan cəmiyyəti hələ də məğlub olduqlarını həzm edə bilmirlər. Ermənistan reallıqları qəbul etməlidir. Azərbaycan özünün işğalda olan torpaqlarını azad edib. Buna uyğun olaraq da Ermənistanın içərisində revanşist, yəni intiqamçı qüvvələr ortalığa çıxıb. Onlar hələdə bəziləri güman edir ki, yenidən toparlanıb Azərbaycana qarşı mübarizə apararaq yalancı ideyalarını doğrulda və ya dircəldə bilərlər".




Müşfiq Ələsgərli bildirib ki, bu isə boş xülyadan başqa bir şey deyil: "Onlar özlərinin xülya hərəkətlərini reallaşdırmağa çalışırlar. Bu yalanlar həm də informasiya siyasətinin tərkib hissəsidir. Amma bilməlidirlər ki, son 30 ildə danışdıqları yalanlar bəhrə verməyib kimi bundan sonra da danışdıqları yalanlar və Azərbaycana qarşı atılan böhtanlar da heç bir nəticə verməyəcək. Onlar cəbhə xəttində təxribatlar törədərək istəyirlər ki, nəyəsə nail olsunlar. Qəsdən yalan məlumatlar yayaraq bildirirlər ki, guya bu təxribatlar Azərbaycan tərəfindən törədilir. Amma vurğuladığımız kimi erməni dezinformasiyaların ən güclü hal aldığı zamanda belə dünyaya yalanların həzm etdirə bilmirdilər".

***Qönçə Quliyeva***

---

### Çavuşoğlu: "Ermənistan uzun müddət Azərbaycanın sülh təklifinə cavab vermədi"



İki gün əvvəl sərhəddə baş verən qarşıdurma bölgədəki vəziyyətin nə qədər həssas olduğunu göstərdi. Can Azərbaycan Ermənistana faydalı bir sülh anlaşması təklif edib. Ermənistan uzun müddət bu təklifə cavab vermədi. Bu fikirləri Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu ifadə edib.

Şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə şəfa diləyən nazir Mövlud Çavuşoğlu Ermənistan ilə normallaşma prosesinə dair atılan addımlardan bəhs edərək vurğulayıb ki, Ermənistan sülhə dəyər verirsə əhəmiyyətli addımlar atmalıdır.

Türkiyənin bundan sonra da Azərbaycanın yanında olduğunu xatırladan nazir Mövlud Çavuşoğlu Türk Dövlətləri Təşkilatının tarixi missiyasından bəhs edərək təşkilata üzv ölkələrin ikitərəfli və çoxtərəfli əməkdaşlığının, eləcə də fəal müzakirə olunan Orta Dəhlizin əhəmiyyətindən danışıb.

**_Nuru Paşanın rəhbərliyi ilə Qafqaz İslam Ordusunun və Azərbaycan Korpusunun Bakını erməni-bolşevik işğalından azad etməsindən 104 il ötür. 1918-ci ilin sentyabr ayının 15-i Bakının azad edilməsi tariximizdə mühüm yer tutan hadisəyə çevrilib. 104 il əvvəl baş verən hadisə hər zaman tariximizdə vərəqlənir. Həmin tarixdə Qafqaz İslam Ordusu Azərbaycan xalq könüllü dəstələrinin köməyi ilə Bakını azad edib. Böyük strateji mövqeyə malik olan Bakıya o dövrdə olan maraq və diqqəti nəzərə alsaq, onun azad edilməsinin də heç də asan olmadığını anlamaq olar._**

# Bakı erməni-bolşevik işğalından necə azad edildi?

Təhlil



Belə bir tarixi yaşamış Azərbaycan mövcud olan zaman kəsiyində yaşantılarını salnamələr əsasında diqqətdən keçirib. Bu gün həmin hadisədən bir əsrdən artıq zaman ötsə də, Azərbaycan tarixinin müəyyən bir hissəsi olan 15 sentyabrı xatırlamaq zəruri məqamlardandır.

Tarixi mənbələrdə göstərilir ki, Osmanlının hərbi naziri Ənvər paşanın qardaşı Nuru paşanın komandanlığı altında Qafqaz hərəkatı başladı.

### NURU PAŞA KİMDİR?

Xatırladaq ki, 1918-ci ilin mayında Azərbaycanın müstəqilliyinin elan olunmasına baxmayaraq, ölkə ərazisinin bir hissəsi, Bakı və ətraf rayonlar hələ də erməni-bolşevik işğalı altında idi. Belə bir şəraitdə özünün çox ağır durumuna rəğmən Osmanlı dövləti Azərbaycanın ərazi bütövlüyünü təmin etmək məqsədilə Nuru Paşanın komandanlığı ilə hərbi qüvvələrini göndərib və Qafqaz İslam Ordusu Gəncədən azadlıq yürüşünü başlamaqla, bolşevik-daşnak qüvvələrini darmadağın etdi. Bəs, Qafqaz İslam Ordusu nə vaxt və necə yaranıb? Hərbi nazir Ənvər Paşanın əmri ilə yaradılmış və tamamilə müsəlmanlardan ibarət olan ordu Birinci Dünya müharibəsi zamanı Qafqaz cəbhəsindəki döyüşlərdə iştirak etmişdir. Onunla bağlı olan mənbələrdə göstərilir ki, bu orduya Nuru Paşa rəhbərlik edirdi. 12-14 min osmanlı əsgərindən ibarət olan Qafqaz İslam ordusu, Azərbaycan türklərindən və Dağıstan müsəlmanlarından ibarət könüllülərin qatılması ilə təqribən 20 min sayında olmuşdur. Azərbaycanın türk-müsəlman əhalisinə qarşı həyata keçirilən kütləvi qırğınların qarşısını almaqda böyük rol oynayıb. Məhz ən çətin ictimai-siyasi vəziyyətdə Nuru Paşanın rəhbərlik etdiyi Qafqaz İslam Ordusu Bakının işğaldan azad olunmasında rolu əvəzsizdir. Bəs, əslində Nuru Paşa kimdir? Nuru Paşa və ya Nuru Killigil 1890-cı ildə İstanbulda anadan olub. İstanbulda böyüyüb və orada ilk hərbi təhsilini alıb. İlkin təhsilini başa vurduqdan sonra əmisi Xəlil paşanın və qardaşı Ənvər paşanın yolunu davam etdirib və 1906-cı ildə Quru qoşunları məktəbinə daxil olub. 1909-cu ildə bu məktəbi başa vuran Nuru paşa Osmanlı ordusu sıralarında zabit kimi xidmətə başlayıb. Mövcud olan məlumata görə, Nuru paşa 1911-ci ildə Hərbi Akademiyada da təhsilini başa çatdırıb. Bundan sonra o, bir sıra hərbi vəzifələrdə xidmət edib. 1913-cü ildə yüzbaşı, 1916-cı ildə minbaşı və 1918-ci ildə, Azərbaycana gəlməsi ərəfəsində yarbay rütbəsi alıb. Nuru paşa bu rütbədə də həyatını başa vurub.

Nuru paşa real olaraq "paşa" (general) rütbəsinə malik olmayıb. Qafqaz İslam Ordusu komandanı təyin ediləndə o, yarbay rütbəsində idi. Lakin ölkə xaricində çox böyük sayda hərbi qüvvələrə və daha yüksək rütbəli zabitlərə komandanlıq etməli olduğu üçün ona Osmanlı sultanının qərarı ilə Azərbaycanda olduğu müddətdə (Qafqaz İslam Ordusunun komandanı olması ilə əlaqədar) fəxri olaraq "feriq" (general-leytenant) rütbəsi verilib. Azərbaycanda olduğu zaman Nuru paşa bu rütbəni daşımalı və bu rütbənin səlahiyyətlərinə malik olmalı idi. Nuru paşa Türkiyəyə geri döndükdən sonra ona feriq rütbəsini təhvil verdi və bir müddətdən sonra yarbay rütbəsində təqaüdə çıxdı. Lakin Azərbaycanda göstərdiyi çox dəyərli xidmətlərinə görə Nuru paşaya həm Azərbaycanda, həm də Türkiyədə "paşa" deyə müraciət etmişdilər. Elə bu gün də Nuru paşa həm Azərbaycanda, həm də Türkiyədə paşa kimi xatırlanır və elə bu ad altında da ortaq tariximizin səhifələrində əbədilik həkk olunmuşdur.

### CƏSARƏTLİ DÖYÜŞÇÜ

Tarixi mənbələri vərəqlədikcə görürük ki, Nuru paşa kifayət qədər cəsarətli bir döyüşçü olub və məsuliyyətli vəzifələrin icrasını öz üzərinə götürməkdən heç zaman çəkinməyib. Birinci Dünya müharibəsi ərəfəsində Nuru paşanın qardaşı Ənvər paşa Türkiyənin hərbi naziri idi. Özü isə sultan qvardiyasında xidmət edirdi. Yəni, qayğısız xidmət etmək üçün əlində böyük imkanlar var idi. Amma hələ Birinci Dünya müharibəsi ərəfəsində Afrikanın şimalında Osmanlı nəzarəti altında olan ərazilərin itirilməsi təhlükəsi yarananda Nuru paşa Osmanlı sultanından xahiş etdi ki, onun Şimali Afrikaya yollanmasına və orada Osmanlı maraqlarının silah gücünə qorunmasında iştirak etməsinə icazə versin. Bunun nəticəsi idi ki, Nuru paşa 1911-12-ci illərdə və eləcə də Birinci Dünya müharibəsi illərində Trablusqərb cəbhəsində ağır döyüşlərə qatıldı və elə bu döyüşlərdə də Qafqaz İslam Ordusuna uğurlu komandanlıq üçün dəyərli hərbi təcrübəni əldə etdi. Cənubi Qafqazda cərəyan edən qanlı hadisələr Osmanlı rəhbərliyi tərəfindən də çox narahatçılıqla izlənilirdi və Azərbaycan xalqına hərbi kömək göstərilməsi üçün Ənvər paşa konkret planlar üzərində düşünməyə başlamışdı. Osmanlı zabitlərinin köməyi və iştirakı ilə təşkilatlandırılacaq orduya Qafqaz İslam Ordusu adı verilməsi qərarlaşdırılmışdı.

### MÜHARİBƏLƏRDƏ XİDMƏTİ OLAN BÜTÜN ZABİT VƏ SIRAVİLƏRİN HƏR BİRİNƏ TƏŞƏKKÜR

Nuru paşa qəhrəmanlıqla döyüşərək Bakını azad edən Məmətçiyin bu xidmətinin əvəzini ödəmək lazım olduğunu bildirirdi. Qafqaz İslam Ordusu Komandanı Nuru paşa Bakını azad etmələri münasibəti ilə bütün diviziyalara təbrik göndərdi. Təbrikdə deyilirdi: "Bakının ələ keçirilməsi üçün edilən müharibələrdə xidməti olan bütün zabit və sıravilərin hər birinə, göstərdikləri şücaət və fədakarlığa görə təşəkkür edirəm. İlk piyada hücumunu uğurla yerinə yetirən 9 və 56-cı alaylara, düşmən qüvvələri üstün olduğu halda hücumla qısa zaman ərzində Biləcərinin yüksəkliklərini ələ keçirən 38-ci alaya, xüsusi təşəkkürümü bildirirəm. 56-cı alayın topçu atəşi müşayiəti olmadan düşmənin iki xəttini işğal etməsi təqdirəlayiq haldır. Buna görə alay komandiri minbaşı Fəhmi bəyin yarbay rütbəsi ilə təltif olunması barədə Hərbiyə Nazirliyinə təqdimat verdim. Bu döyüşlərdə fərqlənən zabit və sıravilərin təyin olunaraq, 17 sentyabr axşamına qədər Ordu Komandanlığına göndərilməsini xahiş edirəm".

Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin ilk sədri Fətəli xan Xoyski Bakının azad edilməsi uğrunda türk hərbçilərinin göstərdiyi xidmətləri Nuru paşaya müraciətində belə qiymətləndirmişdir: "Millət sizə minnətdardır".

Sentyabrın 16-da səhər tezdən Qafqaz İslam Ordusunun Bakının asayişində dayanan hissələrindən başqa qalan qüvvələrinin rəsmi keçidi keçirildi. Bu rəsmi keçid Qırmızı Qışla adlanan məntəqədə (İndiki Bakı Dövlət Universiteti ilə Bakı-Quba yolu arasında yerləşirdi) təşkil edildi. Rəsmi keçiddə Xəlil paşa, Nuru paşa, Əlağa Şıxlinski, Həbib bəy Səlimov, Azərbaycan hökumətinin bir sıra üzvləri də iştirak edirdilər. Rəsmi keçid bitdikdən sonra adları çəkilən şəxslər, qonaqlar və qoşun hissələri şəhərə daxil oldular.

Bəli, Qafqaz İslam Ordusu böyük bir missiyanı həyata keçirdi. Nuru paşanın xatirəsi, Qafqaz İslam Ordusunun rəşadəti Azərbaycanda həm cəmiyyət, həm də dövlət səviyyəsində xüsusi ehtiramla yad edilir. Qarabağda anti-Sovet xalq üsyanının yatırılmasından sonra Türkiyəyə qayıtmalı olan Nuru paşanın sonrakı həyatı Türkiyə ilə bağlıdır. Öz doğma vətəninə qayıtması ilə Nuru paşa yeni sınaqlarla üzləşməli oldu. Hər şeydən əvvəl Sovet Rusiyasının bolşevik rəhbərliyi Azərbaycanda bolşevik hakimiyyətinə qarşı qətiyyətli mübarizə aparan Nuru paşanın təqibini Türkiyə ərazisində də davam etdirdi. Sovet Rusiyanın rəhbərliyi ilə Türkiyənin müxtəlif səviyyəli heyətləri arasında aparılan danışıqlar zamanı Nuru paşanın Qarabağda sovet hakimiyyətinə qarşı mübarizə aparması ciddi tənqidlə qarşılandı.1920-ci il sentyabr ayının sonlarında Nuru paşa Türkiyənin azadlıq mübarizəsinə qoşuldu və Sarıqamış ətrafında döyülərə qatıldı. Nuru paşa bu döyüşə onunla birlikdə Türkiyə ərazisinə keçmiş Azərbaycan milli süvari alayı ilə daxil oldu və bir daha Azərbaycana bağlılığını nümayiş etdirdi. Onun qatıldığı döyüş də uğurlu oldu və Azərbaycan süvari alayı 1920-ci il sentyabr ayının sonlarında Sarıqamışı ələ keçirdi. 1920-ci ilin oktyabrında Nuru paşa Azərbaycan süvari alayı ilə artıq Ərzurumda idi.

### ŞUŞA BƏYANNAMƏSİ: MÜNASİBƏTLƏRİN YENİ MÜSTƏVİSİ

Qarabağda qarşısına qoyduğu məqsədə çata bilməməsi, Nuru paşanın mənəvi və fiziki gərginliyini daha da artırdı. Bunlar Nuru paşanın bütün durumunda da özünü göstərməyə başladı. Bir tərəfdən də dolanışıq çətinliklərinin mövcudluğu Nuru paşanın həyatında ağrılı səhifələrdən birini açdı. Yeni şəraitdə Nuru paşanın ailə üzvləri də pərən-pərən düşmüşdü. Qardaşı Ənvər paşa ingilis təqiblərindən qaçaraq Rusiyaya sığınmış, anası Aişə İstanbulda tək qalmış, digər qardaşı Kamil və bacısı Mediha da yeni şəraitin çətinlikləri ilə üzbəüz qalmışdılar.

1949-cu il mart ayının 2-də Nuru paşa sahibi olduğu Sütlücə hərbi fabrikində baş vermiş partlayış nəticəsində həlak oldu. Partlayış kapsulların saxlandığı otaqda texniki normalara əməl edilməməsi nəticəsində baş vermişdi.

1918-ci il 31 Mart soyqırımı qurbanlarının, 1990-cı il 20 Yanvar, Ermənistanın təcavüzünə qarşı ölkəmizin ərazi bütövlüyü uğrunda aparılan müharibədə həlak olan şəhidlərimizin dəfn olunduğu və hər bir azərbaycanlı üçün müqəddəs olan Şəhidlər xiyabanında Qafqaz İslam Ordusu döyüşçülərinin xatirəsinə Bakı Türk Şəhidliyi abidəsi ucaldıldı. Bu, Azərbaycan və Türkiyə xalqlarının qardaşlığının, əbədi birliyinin rəmzidir. Nəhayət, 44 günlük müharibədə qardaş Türkiyə Azərbaycanın haqq işini birmənalı olaraq diplomatik-siyasi və mənəvi-psixoloji baxımdan müdafiə etdi.

Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın birgə imzaladıqları Şuşa Bəyannaməsi münasibətləri yeni səviyyəyə çıxardı.

***Nəzakət ƏLƏDDİNQIZI***

***Bildiyimiz kimi, sentyabrın 12-də gecə saatlarında Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan-Ermənistan dövlət sərhədinin Daşkəsən, Kəlbəcər və Laçın istiqamətlərində genişmiqyaslı təxribat törədib. SİA mövzu ilə bağlı deputatların fikirlərini öyrənib.***

# Şəhidlərimizin qisası artıqlaması ilə alınıb!





**Deputat Sevil Mikayılova:** "Sentyabrın 12-də məlum olduğu kimi gecə saatlarından başlayaraq Ermənistan silahlı qüvvələrinin bölmələri Daşkəsən, Kəlbəcər və Laçın istiqamətlərində genişmiqyaslı təxribata əl atıb. Azərbaycan Ordusunun təminat yolları minalanıb, mövqelərimiz müxtəlif çaplı silahlar, minaatanlardan intensiv atəşə tutulub. Azərbaycan ordusu düşmən təxribatına layiqli cavab verib, həmlələrin qarşısı alınıb, artıq sərhəd zolağında bir sıra mühüm strateji mövqelərə və yüksəkliklərə nəzarət təmin edilib. Erməni silahlı qüvvələrinin ölkəmizin ərazisinə və suverenliyinə qarşı yönəlmiş bu cinayətlərə cavab olaraq beynəlxalq birliyin praktik addımlar atması çox vacibdir. Son 1 ayda intensivləşən bu təxribatların əsas məqsədi Azərbaycan-Ermənistan arasında müharibədən sonrakı normallaşma prosesini pozmaq, vəziyyəti gərginləşdirmək, münaqişənin hələ də bitməməsi ilə bağlı görüntü yaratmaq, delimitasiya and demarkasiya prosesini əngəlləmək, bununla da sülh sazişinin imzalamamaqdır.

Vurğulayaq ki sülhün möhkəmləndirilməsi istiqamətində göstərilən beynəlxalq səylərə baxmayaraq Ermənistan parallel olaraq təxribatlarını davam etdirir. Son zamanlar Azərbaycan sərhədləri boyunca hərbiləşməni artırmaqla, bölgədə ağır texnika və iri çaplı silahlar yerləşdirməklə Ermənistan genişmiqyaslı hərbi təxribat törətmək niyyətini açıq aşkar göstərirdi. Hədəf isə dünya birliyini diqqətini özünə cəlb etməklə Azərbaycanın bölgədə artan nüfuzu və regional əhəmiyyətinə nə olursa olsun xələl gətirmək idi. 10 noyabrda imzalanmış 3-tərəfli bəyanatın şərtlərinin icra olunması Ermənistanın üzərinə götürdüyü beynəlxalq öhdəlikdir və onun yerinə yetirilməsi mütləqdir. Bu cür təxribatlarla Erməsnistan mənfur məqsədlərənə çatmayacaq. İstənilən təxribatın qarşısı Azərbaycan Ordusu tərəfindən alınır, Azərbaycan əvvəlcədən də bəyan etdiyi kimi öz suveren hüquqlarını bərpa edəcək. Baş vermiş təxribat, qarşıdurma və itkilərə görə Ermənistan hərbi-siyasi rəhbərliyi məsuliyyət daşıyır."

**Deputat Məlahət İbrahimqızı:** "Bildiyimiz kimi 2020-ci ildə xalqımızın 44 günlük Vətən müharibəsində Azərbaycanın otuz il işğal altında olan Qarabağ torpaqları Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi, rəşadətli Milli Ordumuzun qəhrəmanlığı və xalqımızın milli birliyi ilə azad edildi. Bu müharibə Ermənistanın rüsvayçı məğlubiyyətinə baxmayaraq bu gün də Azərbaycan və bölgə üçün təhlükə mənbəyidir. 9-10 noyabr 2020 və 10 yanvar 2021-ci il tarixində Rusiya, Azərbaycan və Ermənistan arasında imzalanmış üçtərəfli müqaviləyə baxmayaraq Ermənistanın bugünədək törətdiyi təxribatlar və revanşist qüvvələrin cinayətləri Ermənistanın təcavüzkar mövqeyini bir daha sübut edir.



Azərbaycan Respublikasının Prezidenti Müzəffər Ali Baş Komandan möhtəşəm qələbənin ilk müjdəsini xalqımıza verərkən, O qeyd etdi ki, artıq Azərbaycan xalqı öz torpaqlarını işğaldan azad etdi. Biz bundan sonra bölgə tarixinin yeni səhifəsini başlayırıq. Bu səhifə tarixi bölgədə dayanıqlı sülh, əminamanlıq, sabitlik və inkişaf səhifəsi olacaqdır. Məhz ötən dövrdə möhtərəm Prezidentimizin fəaliyyəti göstərir ki, o, səsləndirdiyi bu sülməramlı çağırışlarını yerinə yetirməyə çalışıb. Əslində otuz illik işğal tarixində də möhtərəm Prezidentimiz bu münaqişənin danışıqlar yolu ilə həll olunmasına çalışıb. Lakin təcavüzkar dövlət heç vaxt bu cəhdlərə əhəmiyyət verməyib. Hətta BMT-nin və bir sıra beynəlxalq təşkilatların qəbul etdiyi heç bir sənədə məhəl qoymadı.

Bununla bərabər Brüsseldə Azərbaycan-Ermənistan üç tərəfli bəyanatında möhtərəm cənab Prezidentimiz İlham Əliyev, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Ermənistan Respublikasının Baş Naziri Nikol Paşinyan bölgədə sülh və əmin-amanlığın bərpa olunması, iki ölkə arasında münasibətlərin tənzimlənməsi, sülh müqaviləsinin imzalanması məqsədilə üçtərəfli müqavilə bağladı. Sülh müqaviləsinin imzalanması ilə bağlı da möhtərəm Prezidentimizin beş şərti var. 31 avqustda sonuncu Brüssel görüşündə bu beş şərti Paşinyan qəbul etdi və bilirsiniz ki, İtaliyada beynəlxalq konfransda jurnalistlərə verdiyi müsahibələrində cənab Prezident bir daha bunu səsləndirdi. Amma bu ötən dövrdə təcavüzkar siyasətindən əl çəkməyən Ermənistan daima bu müddəti uzadır. Uzatmaqda da məqsədi 2020-ci il noyabr və 2021-ci il Moskva müqaviləsində əks olunduğu kimi Zəngəzur dəhlizinin inşa olunub açılması ilə bağlıdır. Möhtərəm Prezidentimizin Ermənistana verdiyi təkliflərdə də və eləcədə müqavilələrdə də əks olunmuş ən əsas təkliflərdən biri Zəngəzur dəhlizinin tezliklə istifadəyə verilməsidir. Sonuncu Brüssel görüşündə hətta Şarl Mişel görüşün nəticəsi olaraq öz bəyanatında bütün kommunikasiyaların açılmasını bildirdi. Eyni zamanda Şarl Mişel və yaxud başqa təşkilatlar tərəfindən möhtərəm Prezidentimizin irəli sürdüyü təkliflərə qarşı yeni təkliflər irəli sürülməmişdir.

Bilirsiniz, biri var qondarma, təcavüzkar, işğalçı Ermənistan dövləti, biri də var dünya erməni diasporu, erməni lobbisi. Bu erməni lobbisi Azərbaycanın əldə etdiyi möhtəşəm zəferi və Azərbaycanın gündən-günə sürətlə inkişafını və Avropanın ən önəmli, etibarlı tərəfdaşı olan Azərbaycanın nailiyyətlərini görmək istəmirlər. Buna görə də Ermənistana, Paşinyana təzyiq edirlər və Ermənistanda qarışıq bir situasiya yaranıb. Ona görə də erməni revanşistləri, eləcə də Ermənistanın ordusu daxilində olan müxtəlif qruplaşmalar vaxtaşırı müxtəlif yerlərdə hərbi təxribatlar törətmişlər- Laçından, Kəlbəcərdən, Zəngilandan, Qazax və Tovuz bölgələrindən. Hər dəfəsində də sarsılmaz "Dəmir Yumruq" öz zərbəsini vurub. Hər dəfə də elə bir zərbə vurub ki, bütün ictimaiyyət fikirləşir ki, bunların beli bir daha düzəlməz, dikəlməz və dərs olar. Amma vaxtaşırı Ermənistan qaşınma xəstəliyi tutur. Hər dəfə qaşınma tutduqca "Dəmir Yumruq" bir zərbə endirir və sonuncu dəfə Laçın şəhərində Zabux və Sus kəndlərinin işğaldan azad olunmasında da biz bunu gördük. Son vaxtlar artıq Gədəbəydən, sərhəd bölgələrindən atəşə tutmağa başladı. Azərbaycan dövləti 30 il işğal müddəti ərzində bu konfliktin sülh yolu ilə həll olunmasının tərəfdarı oldu.

Möhtərəm Prezidentimizin çıxışlarından birində səsləndirdiyi fikir belədir: "Bundan sonra təcavüzkar niyyətli, işğal niyyətli hər hansı bir qüvvə Ermənistandan baş qaldırsa, o başı necə lazımdırsa, əzəcəyik". Amma yenə deyirəm ki, faydası yoxdur. Bunun səbəbi nədir? Çox təəssüf, Fransada olan erməni diasporu, biz etiraf etməliyik ki, burada fransız siyasətçiləri də var, fransız dövlət adamları da var. Eyni zamanda ABŞ konqresində ermənipərəst siyasətçimi deyək, yaxud erməni siyasətçisimi deyək, Ermənistana ağıl verməkdənsə, əksinə biraz da qızışdırırlar və bu da regionun dayanıqlı sülhünə zərbə vurur. Möhtərəm Prezidentimiz müharibənin səhəri günü xalqa zəfər müjdəsini verdikdə dedi ki, artıq bölgə tarixinin yeni səhifəsini biz açırıq. Bu səhifə dayanıqlı sülh, barış, sabitlik, təhlükəsizlik və inkişafdır. Amma çox təəssüf ki, təcavüzkar Ermənistan və onların xəstə təxəyüllü siyasətçiləri hələ bu 44 günlük Vətən müharibəsindən dərs çıxara bilmir. Vətən torpağının hər qarışında Şəhidlərimizin ruhu var. Allah Şəhidlərimizə rəhmət eləsin! Məkanları cənnət olsun! Məqamları ali olsun! Qazi və yaralılarımıza ən qısa zamanda şəfa versin!."

**Deputat Rauf Əliyev:** "Sentyabrın 12-də gecə saatlarında Ermənistan silahlı qüvvələrinin bölmələri növbəti dəfə 10 noyabr 2020-ci il tarixli Üçtərəfli bəyanatın şərtlərini, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Ermənistanın baş naziri Nikol Paşinyanın Moskva və Brüsseldə keçirdikləri üçtərəfli görüşlərdə əldə olunan razılaşmaları və eyni zamanda, beynəlxalq hüquq normalarını kobud şəkildə pozaraq Azərbaycan-Ermənistan dövlət sərhədinin Daşkəsən, Kəlbəcər və Laçın istiqamətlərində genişmiqyaslı təxribat törədiblər. 30 ilə yaxın Azərbaycan torpaqlarını işğalda saxlayn, 44 gü davam edən müharibədə biabırcasına məğlub olan, kapitulyasiya aktını imzalamış işğalçı və məğlub Ermənistan bu təxribatı ilə bir daha dünya ictimaiyyətinin gözü qarşısında revanşist niyyətlərindən əl çəkmədiyini bir daha nümayiş etdirdi.

Dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyev daim çıxışlarında, müraciətlərində bu bəyanatı səsləndirir ki, Ermənistanda baş qaldırmaq istəyən revanşist qüvvələr dəmir yumruğun yerində olduğunu unutmamalıdırlar. Silahlı Qüvvələrimiz erməni qoşunlarının təxribatlarının qarşısını qətiyyətlə almaqla bir daha Ermənistanın 44 günlük vətən müharibəsində qəhrəman Azərbaycan Ordusundan aldığı dərsi onlara xatırladıb. Azərbaycan Ordusu Ermənistanın növbəti təxribatlarına cavab olaraq qısa zamanda və peşəkarlıqla üzərinə düşən vəzifələri yerinə yetirdi. Ermənistanın hərbi nöqtələri, şəxsi heyətlə birlikdə məhv edildi. Silahlı Qüvvələrimiz ölkəmizin sərhədlərində və hərbi hissələrimizin mövqeyinə təhdid və təhlükə yarada biləcək bütün strateji nöqtələri nəzarətə götürdü.

Ermənistan tərəfi yenə də xis-



lətinə uyğun olaraq Azərbaycanı üçtərəfli Bəyanatın tələblərini pozmaqda ittiham etsə də artıq reallıq dünyanın gözü qarşısındadır. Azərbaycanın əldə etdiyi Tarixi Zəfərimizdən sonra Ermənistanın törətdiyi hər bir təxribatın kökündə sülh sazişinin imzalanmasını gecikdirmək, Azərbaycan xalqının Qarabağ və Şərqi Zəngəzura Böyük Qayıdışını ləngitmək və regionda etimad quruculuğunu pozmaq dayanır. Azərbaycan dövləti tarixi Qələbəmizin ilk günündən qarşı tərəfə sülh təklifini irəli sürsə də bu bəyanatı daim gündəmdə saxlayır ki, təklif uzun müddət masa üzərində qala bilməz. Bu bəyanat Ermənistana və ona havadarlıq edən dövlətlərə ciddi mesajdır. Təxribata verilən cavab nəticəsində Ermənistan tərəfinin çoxlu sayda canlı qüvvəsi və hərbi texnikası məhv edilib. Şəhidlərimizin qisası artıqlaması ilə alınıb."

***Ayşən Vəli***

# Məktəb həyatına ilk çağırış - ilk zəng




***Sentyabrın 15-də respublikada "Bilik Günü" qeyd olunur. Bu, bütün ümumtəhsil məktəblərində yeni dərs ilinin başlanğıcıdır. Təbii ki, bu günü daha çox səbirsizliklə gözləyənlər bu il birinci sinfə gedəcək şagirdlər və I kursa qəbul olan tələbələrdir. Hər il ölkəmizdə Bilik günü böyük təntənə ilə qeyd olunurdu. (Əlbəttə ki, pandemiya ilə əlaqədar məlum səbəblər istisna olunmaqla).***








Təhlil

Sentyabrın 12-si gecə və 13-ü səhər saatlarında Ermənistan silahlı qüvvələri tərəfindən törədilən genişmiqsaylı təxribatın qarşısı alınarkən onlarla hərbi qulluqçularımızın şəhid olduğundan ümumtəhsil məktəblərində "Bilik Günü"nün təntənəli şəkildə qeyd edilməyəcəkdir. Ümumi təhsil müəssisələrində ilk dərs isə "Qarabağ Azərbaycandır!" mövzusuna həsr olunacaq. Əlbəttə ki, bu gün ilk dəfə məktəbə qədəm qoyacaq balaca fidanların yaddaşında erməni təribatçılarının törətdikləri əməlləri silinməz iz buraxacaq. Onlar məktəbə atdıqları ilk addımları illər sonra xatırlayanda, yaddaşlarının ağ səhifəsinə köçürüləcək ermənilərin bu əməlləri heç zaman yaddan çıxmayacaq. Hər bir insanın həyatında bu günün özəl yeri var. Məktəb həyatına ilk çağırış, ilk zəng. Ömrün ən unudulmaz bir zamanına çevrilən bu zəngin sədası illər, qərinələr ötsə də, unudulmur. Bu gün ölkəmizdə məktəbə qədəm qoyan hər bir məktəblinin keyfiyyətli və fasiləsiz təhsil alması üçün bütün imkanlar təmin edilib. Təhsilin keyfiyyətinin yüksəldilməsi üçün dövlətimiz tərəfindən yüksək şərait yaradılıb. Azərbaycanın dünyaya inteqrasiya olunduğu zamanda təhsilimizə yönəlmiş diqqət, məhz bu sahədə zamanın tələblərini ödəyə biləcək ziyalıların yetişməsinə doğru uğurlu bir addımdır. İnsanların həvəslə gözlədiyi və böyük məhəbbətlə qeyd etdiyi bu günün kəsb etdiyi mənanın arxasında böyük dəyərlər dayanır. Bu dəyərlərin ən başlıcası isə müasir dövrümüzdə Azərbaycanın gələcək inkişafını təmin edə biləcək, eyni zamanda, vətənpərvərlik ruhunda milli-mənəvi dəyərlərə söykənən mütəxəssislərin təhsilə mükəmməl olaraq yiyələnməsidir. Azərbaycan Prezidenti İlham Əliyevin təhsili dövlət siyasətinin prioritetlərindən biri kimi diqqətdə saxlaması, bu sahədə köklü islahatların aparılması təhsilin məzmun və keyfiyyətinə təsirini göstərir. Orta ixtisas məktəblərində təhsilin idarə edilməsi, eləcə də, onun keyfiyyətinin yaxşılaşdırılması sahəsində kifayət qədər irəliləyişlərin əldə olunması təhsilli, bilikli, savadlı mütəxəssislərin yetişməsinə səbəb olub. Şagirdlərin elmin sirlərinə dərindən yiyələnməməri üçün hərtərəfli imkanlar açır.

### MÜASİR TƏFƏKKÜRLÜ AZƏRBAYCAN VƏTƏNDAŞININ YETİŞDİRİLMƏSİ ƏSAS HƏDƏFLƏRDƏNDİR

Dövlətimizin başçısının təhsilə qayğısı nəticəsində keyfiyyətli insan kapitalının hazırlanması prosesinin mühüm mərhələsi olan məktəbəqədər təhsildə göstəricilər yüksəlib. Şəhər və kəndlər üzrə məktəbəqədər təhsilin əhatəlilik göstəriciləri əhəmiyyətli dərəcədə artıb, məktəbəqədər təhsil müəssisələrində tərbiyə alan və ümumi təhsil məktəblərində məktəbəhazırlığa cəlb olunmuş 1-5 yaşlı uşaqların ümumi sayı son 5 ildə 16 faiz artıb. Hazırda 1-5 yaşında olan azyaşlıların 32 faizi məktəbəqədər təhsilə cəlb edilib. Növbəti 5 il ərzində bu rəqəmin 50 faizə çatdırılması planlaşdırılır. Bu da o deməkdir ki, dövrün sonuna əlavə 100 min uşağın bu təhsilə cəlbi üçün şərait yaradılacaq. Azərbaycan təhsilinə dövlət tərəfindən göstərilən diqqətin bariz nümunələrindən biri məktəb tikintisinin geniş vüsət almasıdır. Ölkəmizdə yeni məktəb binaları, əlavə korpuslar tikilib və əsaslı təmir olunub. Yeni məktəblərin tikintisi, əlavə korpusların inşası, onların əsaslı təmiri, müasir avadanlıqlarla təminatı, infrastrukturunun yeniləşdirilməsi nəticəsində, ümumilikdə, ölkə üzrə 1 milyondan çox şagirdin təlim şəraiti yaxşılaşdırılıb. Bütün bu işlər, ilk növbədə, şagirdlərin ən yüksək səviyyədə təhsil almaları, onların elmin sirlərinə daha dərindən yiyələnmələri üçün hərtərəfli imkanlar açır. Eyni zamanda, müəllim kollektivinin yüksək səviyyədə çalışması üçün geniş imkanlar yaradır.

Əlamətdar haldır ki, yeni tədris ilində işğaldan azad olunan ərazilərimizdə - Ağalı kəndində məktəbin ilk zənginin səsi eşidiləcək. Onlar bu torpaqda - əzəli torpaqlarımızda elmin sirlərinə bələd olub, Vətən torpağının müqəddəsliyini bir daha təhsilverənlərdən əxz edəcəklər. Əlifbamızın ilk hərfi olan Ana, Azərbaycan sözlərinin dərin mənasını dərk edəcəklər. Vurğulayaq ki, Zəngilan rayonu Ağalı kənd tam orta məktəbinin şagirdlərinə "Smart təhsil kartları" təqdim edilib. Layihə çərçivəsində həm məktəbli kartı, həm də nağdsız ödənişlərin həyata keçirilməsinin dəstəklənməsi funksionallıqlarını özündə birləşdirən smart təhsil kartları 47 şagirdə təqdim edilib. Təqdim olunan smart kartlar şagirdlərə məktəbə giriş, eyni zamanda, məktəbin yeməkxanasında nağdsız ödəniş formasından istifadə etmək imkanı verəcək.

Qeyd edək ki, sözügedən kartlar ölkənin bir sıra peşə və ali təhsil müəssisələrində tətbiq olunur. "Smart təhsil kartı" müəllim və tələbələrə universitet, kitabxana və oxu zallarına giriş imkanı verməklə yanaşı, eyni zamanda təqaüdlərin alınması, ölkə daxili və xaricində istənilən ödənişlərin həyata keçirilməsi funksionallıqlarını özündə ehtiva edir.

### ÇAĞIRIŞLARA CAVAB VERƏN İNSAN KAPİTALI HAZIRLANIR

"Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"ndan irəli gələn "keyfiyyətli insan kapitalının hazırlanması", "təhsilin keyfiyyətinin yaxşılaşdırlması məqsədilə müəllim-pedaqoji heyətin inkişafı və motivasiyası" kimi prioritet-strateji istiqamətlər təhsilin inkişafına olan xüsusi diqqətinin göstəricisidir.

Təhsilin Azərbaycan məktəblilərinə verdiyi imkanlardan kifayət qədər bəhrələnən yeniyetmələr istər Azərbaycanın daxilində, istərsə də, ondan kənarda öz təhsillərini davam etdirmək iqtidarındadırlar. Bu da müstəqil Azərbaycan dövlətinin gənclərə verdiyi ən böyük töhfələrdən biridir. Son illərdə məktəblilərin dərsliklərlə pulsuz təmin edilməsini və s. mühüm halların baş verməsi, məhz görülən işlərin məntiqi nəticəsi kimi qiymətləndirilir.Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təsdiq edilmiş "Təhsilin inkişafı üzrə Dövlət Strategiyası" təhsilin keyfiyyətinin yaxşılaşdırılması, təhsili-idarəetmə sisteminin təkmilləşdirilməsi, insan resurslarının inkişaf etdirilməsi, müəllimin karyera imkanları, fəaliyyətinin stimullaşdırılması və müasir təfəkkürlü Azərbaycan vətəndaşının yetişdirilməsinin əsas hədəflərindəndir. Əlbəttə ki, Zəfər qazanmış Azərbaycan xalqının övladlarının qarşısında geniş imkanlar açılmaqla yanaşı, üzərilərinə də böyük məsuliyyət düşür. Onlar Vətənin gələcək qoruyucularıdır. 44 günlük Vətən müharibəsində məktəb partası arxasında yetişən vətənpərvər gənclər öz iradə və vətən sevgilərini nümayiş etdirdilər. Onların belə vətənpərvər ruhda böyüməmələri üçün dövlətimiz tərəfindən ayrılan diqqət və qayğının nətcəsidir ki, düşməni əzəli torpağımızdan mərdliklə qovaraq, onlara dərs verdilər.

Beləliklə, sentyabrın 15-i ölkəmizin bütün ümumtəhsil məktəbləri və ali təhsil ocaqlarında yeni dərs ili başlayır. Yeni dərs ilində bütün təhsil işçilərini, tələbə və şagirdləri yeniliklər gözləyir. Yeniliklər isə, həm də uğurların başlanğıcı deməkdir. Yeni dərs iliniz uğurlu olsun!

***Zümrüd BAYRAMOVA***

# ŞƏHİDLƏR ÖLMƏZ, VƏTƏN BÖLÜNMƏZ!

***Sentyabrın 12-də gecə saatlarında Ermənistan silahlı qüvvələri tərəfindən törədilmiş genişmiqyaslı təxribatın qarşısını alarkən şəhidlik zirvəsinə ucalmış Xızı rayon Giləzi qəsəbə sakini kapitan Qurbanov Saleh Möhübbət oğlunun dəfn mərasimində Xızı rayon İcra Hakimiyyətinin başçısı Xəzər Aslanov, YAP Xızı rayon təşkilatının sədri Ayaz Quliyev, partiya fəalları, Aparatın işçiləri, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, rayon ictimaiyyətinin nümayəndələri, şəhid ailələri, qazilər iştirak edərək valideyinlərinə dərin hüznlə baş sağlığı veriblər.***



## *Ermənistan ordusu tərəfindən törədilən təxribatın qarşısını alarkən şəhidlik zirvəsinə yüksələn vətən oğulları torpağa tapşırılıblar*

Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən törədilən təxribatının qarşısını alarkən şəhid olan Azərbaycan Ordusunun hərbi qulluqçusu Bədəlov Cavidan Zaur oğlu İsmayıllıda dəfn edilib. S?A xəbər verir ki, şəhid ailəsinin istəyi ilə doğulub boya-başa çatdığı rayonunun Talıstan kənd qəbiristanlığında torpağa tapşırılıb. Dəfn mərasimində C.Bədəlovun ailə üzvləri, yaxınları, rayon rəsmiləri, rayon camaatı və hərbçilər iştirak ediblər.



Bundan başqa Şəhid Fərzəliyev Emin Elnur oğlu Ağcabədidə dəfn olunub. SİA-nın məlumatına görə, Ermənistanın sərhəddə törətdiyi təxribat nəticəsində həlak olmuş Ağcabədi rayon sakini,1998-ci il təvəllüdlü Əsgər Fərzəliyev Emin Elnur oğlu Ağcabədi rayon şəhidlər xiyabanında dəfn olunub.



Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Kəlbəcər, Laçın, Daşkəsən və Zəngilan rayonları istiqamətində törətdiyi genişmiqyaslı təxribatların qarşısını alan zaman qəhrəmanlıq göstərərək şəhid olmuş Əzizli Sadiq Zaur oğlu Qaradağ rayonunda dəfn edilib.





Qaradağ Rayon İcra Hakimiyyətindən bildiriblər ki, şəhidin dəfn mərasimində rayon icra hakimiyyətinin əməkdaşları, ictimaiyyət nümayəndələri, hərbçilər iştirak ediblər.

Ermənistan silahlı qüvvələri tərəfindən dövlət sərhədində törədilən genişmiqyaslı təxribatın qarşısını alarkən şəhid olan Azərbaycan Silahlı Qüvvələrinin hərbi qulluqçusu, kiçik çavuş, 1997-ci il təvəllüdlü Abbaslı Nail Adil oğlu sentyabrın 14-də doğulduğu Oğuz rayonunun Qarabaldır kəndində torpağa tapşırılıb.



Şəhidin dəfn mərasimində Oğuz Rayon İcra Hakimiyyətinin, hüquq-mühafizə orqanlarının, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon şöbəsinin rəhbər və əməkdaşları, şəhidin doğmaları, döyüş yoldaşları və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Mərasimdə çıxış edənlər qüdrətli Azərbaycan Ordusunun düşmənə hər an tutarlı cavab verməyə hazır olduğunu, şəhidlərimizin qanının yerdə qalmadığını, düşməndən amansız qisas alındığını bildiriblər. Tabut üzərinə örtülmüş üçrəngli Azərbaycan bayrağı şəhidin ailəsinə təqdim edilib.









Həmçinin Kürdəmirdə Azərbaycan Ordusunun giziri, şəhid Nəzər Ağacəlil oğlu Əzizovun dəfn mərasimi keçirilib.

Şəhid Nəzər Əzizovun nəşi boya-başa çatdığı Dəyirmanlı kəndindəki evinə gətirilib, sonra isə rayonun Şəhidlər xiyabanında dəfn olunub. Dəfn mərasimində Kürdəmir Rayon İcra Hakimiyyətinin rəhbərliyi, ictimaiyyət nümayəndələri, eləcə də şəhidlə bir yerdə xidmət edən hərbçilər iştirak ediblər. Mərasimdə iştirak edən izdihamlı kütlə "Şəhidlər ölməz, Vətən bölünməz" şüarı səsləndiriblər.

Qeyd edək ki, gizir Nəzər Ağacəlil oğlu Əzizov sentyabrın 12-si gecə və 13-ü səhər saatlarında Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan-Ermənistan dövlət sərhədinin Daşkəsən, Kəlbəcər, Laçın və Zəngilan istiqamətlərində törətdikləri genişmiqyaslı təxribat zamanı şəhidlik zirvəsinə yüksəlib. Nəzər Əzizov 2016-cı ildə Aprel döyüşlərinin və 44 günlük Vətən müharibəsinin iştirakçısı olub. Xidməti dövründə bir neçə medal və fəxri fərmanla təltif olunub. Ailəli idi, 2 övladı var.

Ermənistan silahlı qüvvələri tərəfindən dövlət sərhədində törədilən genişmiqyaslı təxribatın qarşısını alarkən şəhidlik zirvəsinə yüksələn Vadim Qocayev atası Alik Qocayevlə birgə Qobustanın Sündü kəndindəki Şəhidlər xiyabanında dəfn olunub.

Vadim Qocayevin atası Alik Qocayev ürəktutmadan dünyasını dəyişib. Şəhid oğlunun nəşini gətirmək üçün Gəncəyə yollanan ata oğlunun cənazəsini təhvil almazdan öncə infarkt keçirərək dünyasını dəyişib. Ata və oğulun cənazələri Qobustan rayonuna gətirilərək Şəhidlər xiyabanında dəfn edilib. Onların yaşadığı evdə cənazə namazı qılınıb, ruhuna dualar oxunub. Dəfn mərasimində şəhidin yaxınları, Müdafiə Nazirliyinin, rayon icra hakimiyyətinin məsul şəxsləri, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Qeyd edək ki, 1997-ci il təvəllüdlü şəhid Vadim Qocayev Qobustanın Sündü kənd sakinidir. Onun bir qardaşı Dövlət Sərhəd Xidmətində xidmət edir, digəri isə əsgərdir. Vətən müharibəsi iştirakçısı olan Vadimin bir yaşlı qızı var, bu günlərdə onun ikinci övladı dünyaya gələcək.

Dövlət sərhədinin Daşkəsən, Kəlbəcər, Laçın və Zəngilan istiqamətlərində Ermənistan silahlı qüvvələrinin törətdiyi genişmiqyaslı təxribatın qarşısını alarkən şəhid olan əsgər Əliyev Üzeyir Sabir oğlu, gizir İmamverdiyev Asiman Mehman oğlu və leytenant Hüseynov Erkin Ədalət oğlu torpağa tapşırılıblar.

Vida mərasimlərində Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Göygöl Rayon İcra Hakimiyyətinin başçısı Elvin Paşayev, YAP Gəncə şəhər təşkilatının sədri Ramil Orucov, Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurasının üzvü hacı Tahir Abbasov, Gəncədə fəaliyyət göstərən idarə, müəssisə və təşkilat, həmçinin hüquq-mühafizə orqanlarının rəhbərləri, şəhər ictimaiyyətinin nümayəndələri və şəhidlərin yaxınları iştirak ediblər. AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Azərbaycan Ordusunun əsgəri, 1993-cü il təvəllüdlü şəhid Üzeyir Əliyevin nəşi vida mərasimindən sonra Göygöl rayonuna yola salınıb. O, Göygölün Şəhidlər xiyabanında dəfn olunub.

Azərbaycan Ordusunun giziri, 1988-ci il təvəllüdlü Asiman İmamverdiyev və 1998-ci il təvəllüdlü leytenant Hüseynov Erkin Ədalət oğlu isə Gəncənin Şəhidlər xiyabanında torpağa tapşırılıblar.

Qeyd edək ki, sentyabrın 12-si gecə və 13-ü səhər saatlarında Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan-Ermənistan dövlət sərhədinin Daşkəsən, Kəlbəcər, Laçın və Zəngilan istiqamətlərində genişmiqyaslı təxribat törədilib.

Müdafiə Nazirliyindən verilən məlumata görə, genişmiqyaslı təxribatın qarşısı alınarkən Azərbaycan Ordusundan 42, Dövlət Sərhəd Xidmətindən isə 8 hərbi qulluqçusu olmaqla ümumilikdə Silahlı Qüvvələrin 50 hərbi qulluqçusu şəhid olub.

Allah bütün şəhidlərimizə rəhmət eləsin.



# Əli Kərimli, sən ermənisən, yoxsa müsəlman?!

## *Yaxud, cəbhəkrat "əzabkeşlərin" erməni "məzlumkeşlərindən" heç bir fərqləri yoxdur!*

***Sentyabrın 12-dən 13-ə keçən gecədən etibarən cəbhənin Ermənistan və Azərbaycan arasında delimitasiya və demarkasiya olunmamış sərhəd ərazilərində baş vermiş erməni təxribatının qarşısı Azərbaycan Ordusunun əsgər və zabitləri, sərhədçiləri və s. birləşmələri tərəfindən qətiyyətlə alındı.***

O cümlədən, Azərbaycan oğullarının Vətən və dövlətin bütövlüyü uğrunda göstərdikləri şücaətləri bir daha sübut etdi ki, heç bir ölüm-itim qorxusu, heç bir həyati təhlükə bu oğulların gözlərini əsla qorxutmur. Müharibə isə itkisiz olmur və torpaqlarımız uğrunda tökülən hər bir şəhid qanının öcü, qisası artıqlaması, hətta yüz dəfələrlə artıqlaması ilə alınır, bundan sonra da alınacaq. Bu baxımdan, hər bir düşünən beyinə tam şəkildə aydındır ki, Vətən yolunda şəhidlik zirvəsinə yüksəlmək amili də var və şəhidlik şərbəti təmənnasız, minnətsiz olaraq içilir. Allah torpaqlarımızın bütövlüyü uğrunda canlarını fəda etmiş bütün şəhidlərimizə rəhmət eləsin, onların hər biri bizlərin övladları, bizlərin can parçalarıdırlar!

Digər tərəfdən, Ordumuzda olan ruh yüksəkliyi və düşməni öz qanında boğmaq istəyi əsla tükənmir və bu tükənməzlik özünü qarşısı alınan düşmən təxribatına qarşı aparılan hərbi əməliyyatlarda da sübut edir. O cümlədən, 44 günlük Vətən müharibəsində olduğu kimi bu gün də Ordumuz dünyanın ən aparıcı hərbi texnologiyaları, texnikaları və silah-sursatları ilə təmin edilib və bu reallıq da düşmənlə mübarizədə canlı itkilərimizin sayının dəfələrlə aşağı olmasına kifayət qədər şərait yaratmaqdadır. Lakin...

### Erməni pulu ilə bəslənən, beş-on avro və dollar naminə erməni ağalarının dabanlarını yalayan bəlli siyasi şizofreniklər

Lakin təəssüf ki, nəinki indi, bütövlükdə uzun illərdir ki, düşmən erməni xislətlilərindən fərqlənmədiklərini əməli şəkildə sübut edən manqurt və marginal müxaifət yetkililəri hazırda da öz kirli, murdar və düşmən dəyirmanına su tökən idbar əməllərindən əl çəkmirlər. Hazırda sərhəd boyu qazanılan uğurlarımızdan açıq-aşkar təəssüflləndiklərini nümayiş etdirirlər. Xüsusilə, AXCP sədri Əli Kərimli və onunla eyni cinahda - "Milli Şura"da yer alan Tofiq Yaqublu, Gültəkin Hacıbəyli, Cəmil Həsənli kimi riyakarlar, habelə xarici ölkələrdə erməni pulu ilə bəslənən, beş-on avro və dollar naminə erməni ağalarının dabanlarını yalayan bəlli siyasi şizofreniklər düşmənin təxribatlarına qarşı mübarizə aparmaları yerinə düşmənə dəstəklərini bu və ya digər şəkildə nümayiş etdirirlər. Gah "matəm elan olunmalıdır" kimi ölkədə ruh düşkünlüyü yarada biləcək çağırışlar səsləndirən sözügedən yığnaq təmsilçiləri digər tərəfdən 44 günlük müharibədə kapitulyasiya aktına imza atmış Ermənistan rəhbərliyinə dolayısı ilə qahmar çıxır, gah da "bəs müharibə başa çatmışdı?" tipli iyrənc sualları ilə cəmiyyət arasında çaşqınlıq yaratmağa səy göstərirlər. Bu idbar ünsürlər hələ də anlamırlar ki, müharibə başa çatıb və bu gün başa çatmış müharibədə kapitulyant ölkə üzərinə düşən vəzifələrini yerinə yetirmədiyi üçün, eləcə də təxribatlara əl atdığı üçün cəzalandırılmaqdadır!



### Əli Kərimli daşnak, Tofiq Yaqublu hnçak, Gültəkin Hacıbəyli isə dövrünün Silva Kaputikyanıdır! Digərləri isə Andranik, Njde, Amazaps...

Baxın, erməni müxalifəti açıq-aydın Ermənistan hakimiyyətini kapitulyant adlandırırlar, amma bizim sözdə "müxlifətçilər", əməldə isə erməni qazanından dadanlar Ermənistan hakimiyyətini kapitulyant kimi görmədiklərini göstərməyə cəhd edirlər. Bu zaman elə başda Əli Kərimli olmaqla sual verilə bilər: Sən, və ya sizlər ermənisiniz yoxsa müəlman?! Məncə görünüşcə layiq olmadıqları azərbaycanlı cildindədirlər, amma daxilən ERMƏNİDİRLƏR! Misal üçün, Əli Kərimli daşnak, Tofiq Yaqublu hnçak, Gültəkin Hacıbəyli isə dövrünün Silva Kaputikyanıdır!

Digərləri isə Andranik, Njde, Amazaps və sair idbarlar toplumunun nümayəndələridirlər. Bəli, onlar guya xalqın, millətin, dövlətin "qeydinə" qaldıqlarını göstərməyə çalışsalar da əslində bu kimi yüksək artistizmlik "məharətləri" ilə erməni ağadayılarının az qala altlarına yıxılıb siyasi fahişəliklərini rəsmiləşdirirlər.

Hesab verəcəyi vaxtları elə də uzaqda deyil, hətta çox yaxındadır - növbəti Zəfərimizdən dərhal sonra!

Beləliklə, artıq bir daha hər şey öz təsdiqini növbəti dəfə tapır. Vətən müharibəsində siyasi partiyaların birgə dəstək bəyanatlarına imza atmayan həmin bu Əli Kərimli Zəfərdən sonra qardaş Türkiyə ilə imzalanmış Şuşa Bəyannaməsinə də imza atmaqdan imtina etdi və əslində onda sübut etdi ki, o əsl, geçrək, real, dəyişillməz bir qanıpozuq ERMƏNİDİR və bundan əsla təəccüblənməyə dəymez.

Söz yox ki, əgər kimlər ki, bu kimi riyakarın yanında yer alırsa, onların da Əli Kərimlidən heç bir fərqedici xüsusiyyətləri yoxdur. Və əlbəttə ki, bu gün Azərbaycan dövlətinin və xalqının belə yığnağın nə dediklərinin, nə danışdıqlarının əhəmiyyəti də mövcud deyil. Sadəcə, bizlər bilməliyik ki, xarici düşmənlərimizə xidmət edən, nökərçilik göstərən daxili düşmənlərimiz də var və hər şey yoluna qoyulduqdan sonra onların da hesab verəcəyi vaxtları elə də uzaqda deyil, hətta çox yaxındadır - növbəti Zəfərimizdən dərhal sonra!

***Rövşən RƏSULOV***

***P.S.** Hələlik isə qoy istədikləri qədər erməniçiliklərini davam etdirsinlər, görək haraya qədər davam edəcəklər...*

## Pakistanlı ekspert: "Ermənistan Qarabağla bağlı öhdəliklərə əməl etməyə borcludur"

Biz, pakistanlılar Azərbaycan-Ermənistan sərhədində baş verənləri böyük narahatlıqla izləyir və kədərlənirik. Azərbaycan beynəlxalq səviyyədə tanınmış ərazi bütövlüyünü qoruyur və buna uyğun hərəkət edir. Ermənistan indiyədək Qarabağla bağlı ikitərəfli və çoxtərəfli danışıqlarda götürülmüş öhdəliklərə əməl etməyə borcludur. Biz beynəlxalq ictimaiyyətdən və təşkilatlardan bu hadisəni pisləməsini gözləyir və Ermənistanın təxribatlara son qoymasına ümid edirik.



Bunu AZƏRTAC-a açıqlamasında Pakistan-Azərbaycan Məzunları Birliyinin qurucusu, strateji kommunikasiyalar üzrə pakistanlı ekspert Qayser Nəvvab söyləyib. Qayser Nəvvab deyib: "Sentyabrın 13-də Ermənistan silahlı qüvvələri Azərbaycanın Kəlbəcər, Laçın, Daşkəsən və Zəngilan rayonları istiqamətində genişmiqyaslı təxribatlar törədiblər. Təxribat nəticəsində Azərbaycan əsgərləri şəhid olublar. Bütün Azərbaycan xalqına dərin hüznlə başsağlığı verir, şəhidlərə Allahdan rəhmət diləyirik".

Bildirilib ki, Ermənistan Azərbaycana qarşı təxribatlara son qoymalı və sülh üçün mövcud imkanlara kölgə salınmamalıdır.

## "Bu cür fəaliyyət göstərən şəxslər məsuliyyətə cəlb edilməlidir"



"Təəssüflər olsun ki, müxalifət adı altında gizlənib xainlik nümayiş etdirənlər var. Əli Kərimlinin açıqlamasını oxudum. Həmin açıqlamanı oxuduqdan sonra şok keçirdim. Bu gün Azərbaycan xalqı Qarabağ uğrunda mübarizə aparır. Belə bir vəziyyətdə Azərbaycanı vurmağa və Azərbaycan rəhbərliyini zəif salmağa çalışmaq Azərbaycan dövlətçiliyinə birbaşa xəyanət aktıdır". Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı, Milli Cəbhə Partiyasının sədri Razi Nurullayev deyib.

Onun sözlərinə görə, özünü alim adlandıran, Azərbaycan xalqının düşməni, azərbaycanlı adını daşımağa layiq olmayan Altay Göyüşov açıq-aşkar şəkildə bəyan edir ki, "mən Azərbaycanın Ermənistana qarşı təcavüzünü lənətləyir və pisləyirəm": "Belə bir adamın azərbaycanlı adını daşımağa haqqı yoxdur. Əlavə olaraq bu gün Azərbaycan xalqına özünü sırımağa çalışan şəxslər müxalifət adı altında çox aldadıcı fikirlərlə çıxış edirlər. Onlar başa düşmürlər ki, bu sərsəm fikirlər birbaşa Ermənistana dəstək vermək deməkdir. Çünki bu cür həssas bir dövrdə dövlətə qarşı çıxmaq birbaşa xəyanətkarlıqdır. Hesab edirəm ki, bu cür fəaliyyət göstərən şəxslər məsuliyyətə cəlb edilməlidir".

***Arzu Qurbanlı***

## Yenidən qapanmalar olacaq?

### *İnfeksionist açıqladı*



***"Covid pandemiyası hələ də davam edir. Ölkəmizdə hazırda vəziyyət stabildir. Gördüyünüz kimi yoluxma hallarının sayında azalma müşahidə edilir". Bu fikirləri SİA-ya açıqlamasında infeksionist Vasif Əliyev bildirib.***

Həkimin sözlərinə görə, sağalan xəstələrin sayında isə artım var: "Artıq demək olar ki, var olan dalğa enişə doğru gedir. Payız mövsümünə giririk, məktəblər açılır və qapalı məkanlardan istifadə halları getdikcə çoxalır. Bu səbəbdən də yoluxmanın qarşısını almaq üçün müəyyən qaydalara əməl olunmalıdır. Çünki payız ayları riskli bir dövrdür. Təbii ki, bu səbəbdən də payız və qış mövsümlərində ehtiyatlı olmaq lazımdır. Yoluxma hallarının sayından asılı olmayaraq xəstəlik yüngül keçdiyindən xəstəxanada yatan xəstələrin sayında azalma müşahidə olunur. Əvvəl yoluxma halları çox olsa da, xəstəxanaya yatan insanalarında sayı çox idi. İndi isə çox insan bu xəstəliyi ev şəraitində keçirir. Bəzi insanlar xəstə olsa belə bunun fərqində deyillər. Havaların soyumasını və məktəb dövrünü nəzərə alaraq daha ehtiyyatlı olmağı hamıya tövsiyyə edirəm".

***Banuçiçək Hüseynli***

# Qəlblərdə taxt quran Şəhidlərimiz



**ŞƏHİD XATİRƏLƏRİ**

***Qan tökülməyən torpaqdan Vətən olmaz. Vətənin böyüklüyünün qorunması, bütövlüyünün təminatı yolunda tökülən qanlar bu məfhumun müqəddəsliyini göstərir. Azərbaycan tarixən işğalçıların hücumuna məruz qalıb və bu torpaqdan düşməni qovmaq üçün tökülən qanlar Azərbaycanı qoruyub, xalqın vüqarını qoruyub, onun adını ucaldıb. Bu torpağın Vətən olduğunu dərk edən insanlar onun keşiyində durmağı özünə borc, amal biliblər. Son illərin hadisələri zamanı bunun bir daha şahidi olduq.***

Azərbaycanın son 30 ildə torpaqları qan ilə, şəhid qanı ilə suvarıldı. Şəhid qanı ilə suvarılan torpaq ən müqəddəs torpaqdır. Can verib torpaqdan düşməni qovduq. Elə bu günün özündə də vətənin keşiyində duran hərbçilərimizin bəziləri şəhidlik zirvəsinə yüksəlir. Axıdılan qanlar bu torpağın aşiqlərinin qanıdır. Bu torpağın nə qədər şəhid övladı var. Yaşından asılı olmayaraq, bu torpağa şəhid qanları axıdılıb. Bu gün tariximizə qovuşan şəhidlərimizin qanı yerdə qalmadı. 44 günlük vətən müharibəsində Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi, Azərbaycan ordusunun rəşadətli qələbəsi şəhidlərimizin qanını yerdə qoymadı. Hər bir insan üçün ən ali bir hissdir Vətən sevgisi, torpaq məhəbbəti. Vətənsiz bir millət, millətsiz bir Vətən ola bilməz. Bəli, bu torpağa, Vətənə Ana deyən övlvadları var. Elə 44 günlük vətən müharibəsində şəhid olan minlərlə oğullarımız kimi. Adları dillərimizdə dastan olan oğullarımız - şəhid oğullar. Hər birinin həyatı bir hekayədir, dastandır. Qəhrəmanlıq, igidlik dastanıdır.

Şəhid qardaşların həyat hekayəsi

Vaxtilə xəyalən yol getdiyimiz o yollara məhz belə oğulların qanı bahasına yol alırıq. Bir ovuc torpaq və ondan gələn ətir sanki ağrı- acımızı unudur. Tökülən qanların qoxusu, igidlik qoxusu ovucumuza götürdüyümüz torpaqdan alınır. Nəfəs verib, nəfəs aldıq, qan tökdük torpaq aldıq. Çox şəhidlərimiz qısa bir ömür yaşadıllar, amma tariximizə adların həkk etdilər. Bu şəhidlər bizim elin, obanın oğullarıdır. Qısa bir ömürdə əbədi bir ömür qazandılar.Qısa bir ömür yolunda ən ali zirvəyə yüksəldilər, Şəhidlik zirvəsinə, həm də bütün xalqımız tərəfindən tanındılar, sevildilər və hər kəsin qəlbində bir taxt qurdular. Azərbaycanda şəhidlər hörmət və ehtiramın ən ali məqamı səviyyəsinə ucalıb. Bu gün haqqında söz açdığımız şəhidlərimiz kimi. Vətən sevgisi ilə boy ataraq öz həyatlarını millət, torpaq yolunda qurban verməyi bacaran oğullar.

44 günlük Vətən müharibəsində şəhid olmuş qardaşlar İman və Bəhrəm Məmmədzadələrin adını xalqımız uca tutur. Qəribə bir tale yaşadılar. Bir evdən, bir nəsildən iki qardaş şəhid oldu. Çoxları onları əkiz qardaş kimi tanıyırdı. İman 1998-ci il sentyabrın 14-də, kiçik qardaş isə Bəhrəm 2000-ci il aprel ayının 18-də Lerik rayonunda anadan olub. İki il aralarında yaş fərqi vardı. Orta təhsillərini Xəzər rayonu Binə qəsəbəsindəki 117 nömrəli məktəbdə alıblar. Hər ikisi ali təhsilini Rusiyada almışdı. Uşaq yaşlarından ikisi də idmana maraq göstərmiş, İman ağır atletika, Bəhrəm cüdo ilə məşğul olmuşdur. Hər ikisi dəfələrlə medal və diplomlarla təltif olunub. keçdikləri yol ömür yolu bir-birindən ayrı deyildi. Bəhrəm iştirak etdiyi beynəlxalq cüdo yarışının finalında erməni rəqibini məğlub edərək birinci yeri tutmuşdu. Onun qələbəsi naminə üçrəngli bayrağımız ucaldılmışdı. Ali təhsillərini başa vurduqdan sonra Vətənə dönmüşdülər. Hərbi xidmətə yollanmışdılar. 2019-cu ildə iyun ayının 11-də Bəhrəm qardaşı İman ilə birgə Vətənə olan borcunu ödəmək üçün həqiqi hərbi xidmətə çağırılır və o da Qusar rayonunun "N" saylı hərbi hissəsinə yola salınır.

Minlərlə gəncimiz kimi onlar da vətənin ən dar zamanında onun keşiyində durdular. Müsəlləh əsgər kimi qaynar nöqtələrdə oldular. Şəhidlik zirvəsinə yüksəlməyi şərəf bildilər. 2020-ci il oktyabrın 27-də Qırmızı Bazar ətrafında gedən gərgin döyüşlər zamanı şəhid oldular. Döyüşlər vaxtı bir an belə bir-birindən ayrılmayan İman və Bəhrəm döyüşlər boyunca ölümün gözünə dik baxıblar. Minlərlə insan döyüşdə onların qardaşı olmuşdur. 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Xocavənd rayonunun Qırmızı Bazar qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıblar. Hər ikisi də noyabrın 2-də Qırmızı Bazar döyüşləri zamanı şəhid olub. Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün hər iki qardaş Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif ediliblər. Bu gün hər iki qardaşın adı bütün şəhid oğulları kimi uca tutulur. Vətən sağ olsun, deyən atalar Azərbaycana belə oğullar yetişdirib, onları Vətən üçün böyütmüşük deyiblər. Bu gün əgər Zəfər tariximizlə qürurlanırıqsa, deməli, bizə qüruru yaşadan şəhidlərimiz var. Şəhidlik müqəddəs məqsəd üçün həyatını verməkdir. Deməli, vətən oğulları öz amallarına yetişdilər. Ən yüksək mərtəbələrə ucaldılar. Şəhidlərimizin qanı ilə yuyulan bu torpaq Azərbaycan torpağı hər birimizin müqəddəs Vətənidir. Ömür boyu qürurlandığımız Ana torpaq.

***Zümrüd BAYRAMOVA***









***Həyat sanki bir yolayrıcında başlayır, orada da bitir. Çoxşaxəli yolları birləşdirən yolayrıcında. Bu yolayrıcında qarşılaşır müxtəlif taleli insanlar. Kimi həyata doğru addımlayır bu yollarla, kimi həyatını başa vurub əsl mənzilinə yollanır bu yollarla. Kimi səadətin dəvət etdiyi yollarla irəliləyir, kimi isə hələ də səadət axtarışındadır bu yollarda. Kimi sağlam, gümrahcasına bu yollarla arzularına doğru irəliləyir, kimi isə bu yollarda hələ də şəfa axtarmaqdadır. Bu yolların kəsişdiyi yolayrıcı nələrə şahiddir? Yaxşılara, pislərə, xeyirlərə, şərlərə, kamlara, nakamlara...***



# Yolayrıcı

Bu yolayrıcı illərdir ki, həm də birinciləri və onbirinciləri sinəsindən yolçu edir. Birini həyata göndərir, birini həyat dərsi öyrənməyə. Bu yolayrıcı uşaqları gəncləşdirib yolçu edir yollarında. Bu günlər yolayrıcı minlərlə uşağı birincilər olmağa göndərir. Necə ki, üç ay əvvəl minlərlə onbirincini həyata yolçu etdi, onları müxtəlif sənət, peşə ardınca yola saldı, budur, artıq birinciləri də qarşılayır.

15 sentyabr bu yolayrıcından minlərlə uşaq, yeniyetmə, gənc orta, orta ixtisas və ali məktəblərə-təhsil ocaqlarına yolçu olacaq. Elm dalınca, təlim-tərbiyə, həyat dərsi, bir də ki, əsl vətəndaş olmaq dalınca yollanacaqlar.



### Üç ay öncə

Düz üç ay öncə bu yolayrıcından minlərlə gənc keçirdi. On bir il təhsil alıb artıq məktəblərinə "əlvida" deməyin vaxtı çatdığı üçün məzun olmuş və bu yolçuluğa çıxmışdılar. Bir daha qayıtmayacaqları, geri dönə bilməyəcəkləri doğma məktəblərində onların təhsil zamanı bitmişdi, yeni bir həyat səsləyirdi onları. Məzunlar bu yolayrıcındakı yollarla həmin həyata doğru ilk qədəmlərini qoyurdular. Onların əksəriyyəti abituriyent oldu. Məktəblərdə aldıqları biliklərlə ali məktəblərə qəbul olunmaq üçün imtahanlar verdilər. Tələbə oldular. Tələbə ola bilməyənlər isə bu yollarla hansısa bir peşənin ardınca getdilər. Kimin hansı sənəti, hansı peşəni seçməsindən asılı olmayaraq onların hər birinə bu yeni həyatlarında uğurlar, müvəffəqiyyətlər arzulayır, həyat yolları açıq olsun, deyirik.

Bu yolayrıcından üç ay öncə keçənlərin hər biri bir evin əziz övladıdır. Bu səbəbdən də valideynlər övladlarını cəmiyyətdə yaxşı bir mövqedə görmək üçün bütün həyatlarını həsr edirlər. Onlara təhsil vermək, düzgün tərbiyələndirmək, Vətən üçün xeyirli övlad böyütmək valideynlərin ən birinci arzularıdır. Onlar bunun üçün gecə-gündüz çalışır, həyatın bütün dolanbaclarında maneələri aşıb övladlarını gələcək üçün gərəkli yetişdirmək istəyirlər.

Üç ay öncə yolayrıcından ötüb çoxsaylı yollarla müstəqil həyata addımlayan gənclərin hər biri budur, bu günlər tələbə kimi universitetlərə üz tutacaqlar. Yüzlərlə gənc xaricdə təhsil almağa üstünlük verib, yüzlərlə gənc ölkəmizdə təhsil almağı seçib. Yüzlərlə gənc artıq təhsilin ikinci pilləsində irəliləməkdədir.

İllər ötəcək, üç ay öncə bu yolayrıcından ötənlər cəmiyyətimizin aparıcı qüvvələrinə çevriləcəklər. Onlardan məktəblərimizdə gələcək nəsillərə dərs verənlər də olacaq, xəstəxanalarımızda insanların sağlamlığı keşiyində duranlar da olacaq. İqtisadçı, mühəndis, jurnalist, alim, professorlar olacaq.

Beləliklə bu yolayrıcı çoxşaxəli yollarına payladığı övladlarımızla gələcəyimizə xidmətdədir. Elə bir xidmətdə ki, illər illəri əvəzləyir, qərinələrə çevrilir, qərinələr əsrləri yaradır, lakin yolayrıcı elə qocamancasına yerində əyləşib yola salmaqla və qarşılamaqla öz vəzifəsini yerinə yetirir...

### Yolayrıcından ötən illər keçən gənclər

Bu yoldan keçənlər eyni zamanda məktəblərdə vətənpərvərlik dərsi alan gənclərdir. O gənclər ki, 2020-ci ilin 44 günlük Vətən müharibəsində onların şücaətini, qəhrəmanlığını, Vətən sevgisini gördük. Bu sevgi ilə torpaqlarımız 30 illik erməni işğalından azad edildi, anası Azərbaycana qaytarıldı. Birinci Vətən Müharibəsində torpaqlarımız uğrunda şəhid olan insanların qisasını aldılar. 30 illik doğmasından ayrı düşən torpaqlarımızın qisasını aldılar. 30 il ərzində ata-baba yurdundan didərgin düşənlərin, ölkəmizin dörd bir tərəfində qaçqın, köçkün adı ilə yaşayanların qisasını aldılar. Ermənilər tərəfindən bu torpaqlardakı qəbiristanlıqlarda dağıdılan qəbirlərdə uyuyan soydaşlarımızın qisasını aldılar.

Qarabağın hər daşının, qayasının qisasını aldılar. Hər gülünün, çiçəyinin qisasını aldılar. Bu yerlərə 30 il gəlməyən baharın qisasını aldılar. Bu torpaqlara 30 il doğmayan günəşin qisasını aldılar.

Bu gənclərimizdən üç minə yaxını şəhid oldu, minlərlə övladımız sağlamlığını itirdi. Lakin torpaqlarımız geri alındı. Şərəfimiz, namusumuz xilas oldu.

Bu yolayrıcından illər öncə keçib arzularının, diləklərinin ardınca gedənlərin ömrü yarımçıq qalsa da, onlar elə bir zirvəyə yüksəldilər ki, hər zaman o zirvədən Vətəni, bu yolayrıcından keçənləri izləyəcəklər. Onların həyat yolu bu yolayrıcından ötən bütün uşaq, yeniyetmə və gənclərimiz üçün nümunədir. Çünki onlar Vətən yolunda, torpaqlarımızın azadlığı və ərazi bütövlüyümüz uğrunda canlarından keçənlərdir.

Bu günlər yenə də torpaq uğrunda şəhidlik zirvəsinə ucalan 50 şəhidimiz var. Onların da müqəddəs ruhu qarşısında baş əyməklə bir zamanlar bu yolayrıcındakı yollarla arzu və istəkləri ardınca getdiklərini xatırlayır və böyük ürək ağrısı yaşayırıq. Sən demə onların arzusu hərbçi olmaq, sərhədlərimizi göz bəbəkləri kimi qorumaq imiş. Qorudular da. Erməni təxribatının qarşısını qəhrəmancasına aldılar, düşmənə qan uddurdular və şəhid oldular. Həm Birinci, həm İkinci Vətən müharibəsindəki şəhidlərimizin davamçıları olar bu ruhu, düşüncə, təfəkkürü bir olan gənclər tariximizin yeni bir qəhrəmanlıq səhifəsini yazdılar. O səhifədə yazıldı ki, erməni adlı ünsür bu torpaqlara göz dikə bilməz. Əgər dikərsə, bax belə gözü oyular, ovcuna tökülər.

Ən qürurverici hal isə odur ki, bu yolayrıcı bütün şəhidlərimizin şəkilləri ilə bəzədilib. Ona görə ki, buradan ötənlərin hər biri o şəkillərdəki hünəri, qəhrəmanlığı, şücaəti əxz edə bilsinlər. Edəcəklər də. Bu xalq tarixin bütün dövrlərində əzmi, mərdliyi, igidliyi ilə tanınıb. Bundan sonra da elə olacaq. Bu yolayrıcından keçənlərin hər birinin birinci arzusu da, sonuncu arzusu da Vətən olacaqdır...

### Bağçadan məktəbə...

Bu yolayrıcından budur, minlərlə uşaq ötməkdədir, minlərlə məktəbə doğru irəliləməkdədir. Bağçadan yenicə ayrılmış, hələ irəlidə onları nələrin gözləməsindən xəbərsiz uşaqlar. Məktəbin ilk günləri təhsil ocaqlarına heç cür adaptasiya ola bilməyən, ata-ana dalınca ağlayan, onların da məktəbdə qalmasını istəyən uşaqlar.

Lakin bunlar keçicidir. Məktəblərimizdən keçən yüzlərlə birincilər kimi, onlar üçün də keçicidir. Buna zaman lazımdır. Zamanla onlar məktəbə də, müəllimlərə də, sinif yoldaşlarına da öyrənirlər. Hələ özlərinə dost, rəfiqə də tapırlar. Zaman olur ki, məktəbdən getmək istəmir, dərs saatlarının bitməsini arzulamırlar.

Birincilər hərif-hərif əlifbanı öyrənirlər, söz-söz elmlərə doğru gedirlər. Cümlə-cümlə bütün elmlərin sirrini mənimsəyirlər. Təlim-tərbiyə ilə, aşılanan dünyagörüş ilə böyüyür, yeniyetmə olur, gəncləşirlər. Məktəblərdə vətənpərvər, torpaq sevdalı olmağı öyrənirlər. Cəmiyyət üçün vətəndaş olmağı öyrənirlər.

Bir də baxırsan ki, budur, illər ötdü, dünən məktəbin birinciləri olanlar bu gün onbirincilərdir. Böyüyürlər, artıq hər biri ürəyində bir arzunu, bir istəyi gəzdirir. Həyatda kim olacaqlarını seçib mübarizəyə başlayırlar. Və nəhayət, yenə də yolayrıcındadırlar. Burada kəsişən yollarla irəliləyirlər. Hər biri öz arzusunun, öz istəyinin ardınca...

Beləcə illər ötür... Həyat yerindəcə dayanır. Lakin bu həyatdakı insanlar dəyişir. Uşaqlıqdan gəncliyə, gənclikdən yaşlılığa doğru dəyişir. Bunların hər biri isə yolayrıcındakı yollardan keçir. O yolayrıcı ki, orada qarşılaşırıq. Bir-birimizi yola salır, qarşılayırıq...

### Yolayrıcında arzular...

Yeni dərs ili başlayır... Gərəkli, lazımlı, gələcəyimizin təməli olan dərs ili. Ölkəmizin gələcək inkişafını, tərəqqisini, yüksəlişini özündə ehtiva edən dərs ili. Böyüklü-kiçikli hər bir hadisəsi ilə gözəl xatirələr toplusu olan dərs ili başlayır. Yeni həyatlar başlayır. Yeni arzular, yeni istəklər, yeni seçimlər başlayır. Yeni gələcək başlayır. Bu gələcək təhsilin ilk günündən başlayır. Onu necə başlamaqdan çox şey asılıdır. İlk gündən necə başlamaq böyük şərtdir. Bu səbəbdən də hər bir birincidən tutmuş onbirincilərədək, ali və orta ixtisas məktəblərinin tələbələrinədək hər kəsə yeni dərs ilində uğurlar arzulayırıq. Zehniniz açıq, iradəniz möhkəm, təfəkkürünüz güclü olsun.

Arzumuz budur ki, bu yolayrıcından yeni dərs ilinə yolçu olanların hər biri təhsil müəssisələrində ölkəmiz üçün layiqli vətəndaş olaraq yetişdirilsinlər. Hər biri özündən sonra o partalarda əyləşənlərə nümunə olsunlar. Parlaq həyat yolları, faydalı fəaliyyətləri, vətənpərvərliyi, Vətən sevgisi ilə bu gün ölkəmizi dünyaya tanıtdıran övladlarımızın ardıcılları olsunlar.

Yolayrıcı... Minlərlə gedənə-gələnə şahid yolayrıcı. Müxtəlif taleli yolları sinəsində kəsişdirən yolayrıcı. Sən də uğur arzula bu yollardan ötənlərə. Arzula ki, yolunuz açıq olsun. Bu gözəl ölkənizə layiq vətəndaşlar olasınız. Bu xalqın qədim tarixini, adət-ənənələrini qoruyub saxlayanlardan, nəsillərdən-nəsillərə ötürənlərdən olasınız. Bu millətin keçdiyi tarixi yolları yaşadanlardan olasınız. Bütün bunlar təhsildən keçir. Arzula ki, təhsil uğurları bol olsun övladlarımızın. Təhsil olan yerdə dünən də var, bu gün də, sabah da...

***Mətanət MƏMMƏDOVA***

BAXIŞ BUCAĞI

# Azərbaycan növbəti antiterror əməliyyatı keçirə bilər

## *Azər Badamov: "Ermənistan müstəqil ölkə deyil və havadarlarının dəstəyi ilə təxribatlar törədir"*



***Millət vəkili Azər Badamovun SİA-ya müsahibəsi***

***- Azər müəllim, Ermənistan ordusunun tör-töküntüləri sentyabrın 12-13-də Kəlbəcər, Laçın və digər ərazilərimiz istiqamətində geniş miqyaslı təxribatlar törədib. Bu təxribatların arxasında hansı hərbi- siyasi maraqlar dayana bilər?***

- İlk öncə döyüşlər zamanı qəhrəmancasına şəhidlik zirvəsinə yüksələn əsgər və zabitlərimizə Allahdan rəhmət diləyir, qazilərimizə şəfa arzulayıram. Erməni təxribatlarına gəlincə isə, burda bir neçə məqsəd dayanır. Birincisi, regionda gərginliyi artırmaq və sülh müqaviləsinin imzalanması ilə bağlı aparılmış danışıqları heçə endirmək. İkincisi, sərhəddə hərbi avanturaya əl atmaqla beynəlxalq ictimaiyyətin diqqətini öz yalanına inandırmağına cəhd edərək bu məsələyə beynəlxalq gücləri cəlb etmək. Üçüncüsü, işğaldan azad olunmuş ərazilərimizdə aparılan quruculuq-bərpa işlərinə mane olmaq və keçmiş məcburi köçkünlərin öz yurdlarına qayıdışını ləngitmək. Dördücüsü isə Zəngəzur dəhlizinin açılmasına mane olmaq. Çox təəssüf ki, Ermənistan hələ də başa düşmür ki, imzaladığı sənədlərlə götürülmüş öhdəlikləri icra etməlidir və əgər bunu öz xoşları ilə etməzlərsə Azərbaycanın kifayət qədər hərbi gücü var ki, buna güc yolu ilə məcbur etsin. Amma Azərbaycan hələ də danışıqlara üstünlük verir. Ermənistan uzatdığımız sülh əlimizdən yapışmalı qonşuluq münasibətlərin formalaşmasına çalışmalıdır. Əks halda məhv olunacaqlar və biz öz tarixi torpaqlarımızı da qaytara bilərik.

***- Ermənistanın intensiv xarakter daşıyan bu təxribatları sülh danışıqlarından yayınmaq məqsədi daşımır ki?***

- Ermənistan danışıqlar masasında küncə sıxılmışdır və Brüsseldə sülh müqaviləsinin imzalanması üçün konkret öhdəlik götürmüşdür. Təbii ki, Ermənistanın son bir ayda intensiv təxribatlara əl atmaqla sülh müqaviləsinin imzalanmasını uzatmağa çalışır. Amma çox təəssüf ki, anlamır ki, sülh müqaviləsinin alternativi yoxdur. Əgər Ermənistan yenidən təxribatlara əl atarsa Azərbaycan imzaladığı razılaşmadan çıxa və öz ərazisini erməni hərbi tör-töküntülərdən qısa zaman kəsiyində təmizləmə əməliyyatına başlaya bilər.

***- Paşinyan 44 günlük Vətən müharibəsində olduğun kimi yenə də Makrona, Putinə və ABŞ rəsmilərimə və dünyanın bir sıra ölkələrinə yalvarış xarakterli telefon zəngləri edib. Bu adam qorxursa, çəkinirsə niyə təxribatlara bu dərəcədə meyil göstərir?***



- Birinci ona görə ki, Ermənistan müstəqil ölkə deyil və havadarlarının dəstəyi ilə təxribatlar törədir. Yəni, Cənubi Qafqaz beynəlxalq güclərin maraqların toqquşduğu regiondur və onlar regionda sülhün yaranmasını arzulamırlar. Ona görə də onlar cəhənnəmdə yanıb külə dönmüş Minsk qrupuna yenidən can verməyə çalışırlar. Ona görə də ermənilərə dayaq dayanaraq qızışdırırlar. Sonra da özləri kənarda dayanıb gərginliyi seyr edirlər. Törətdikləri təxribat hərəkətləri ağır nəticələrə məruz qalanda Paşinyan yenidən öz havadarlarına yalvarmağa başlayır ki, Azərbaycanı atəşkəsə dəvət etsin. Paşinyan havadarlardan dəstək alanda elə bilir ki, arxasında böyük güc dayanıb və nəyəsə nail ola bilər. Amma bu, başa düşmür ki, Azərbaycanın Müzəffər Ordusunun qarşısında heç vaxt dayana bilməz və ölkəsinin təhlükəsizliyin təmin edilməsi suveren haqqıdır.

- Necə hesab edirsiniz davamlı xarakter daşıyan bu cür erməni təxribatları nəticə etibarı ilə Azərbaycanı Qisas əməliyyatlarını genişləndirməyə vadar edə bilərmi?

- Azərbaycanın başqa ölkənin ərazisində heç vaxt gözü olmayıb. Eyni zamanda öz ərazisinin də bir qarışını belə kiməsə zəbt etməyə imkan verməyəcəkdir. Əsas hərbi əməliyyatımızı iki il əvvəl 44 gündə apardıq və torpaqlarımızı düşmən tapdağından azad etdik. Sonra da Qisas əməliyyatı keçirməklə düşməni ağıllı olmağına məsaj verdik. Görünür düşmən bundan hələ də nəticə çıxartmayıb və bir aydır ki, intensiv əməliyyatlara əl atmışdır. Təbii ki, düşmənin hər bir təxribatının qarşısı çox ciddi şəkildə alınır və onlar ağır itkilərə məruz qalaraq geri qaçmaqlarına məcbur olurlar. Öz ərazisinin bütövlüyünün və təhlükəsizliyinin təmin edilməsi Azərbaycanın suveren hüququdur. Hər bir ölkənin ərazi bütövlüyünün təmin edilməsi beynəlxalq hüquq normalarında da həkk olunmuşdur. Beynəlxalq hüququn verdiyi imkanlardan istifadə edərək Azərbaycanın Müzəffər Ordusu Qarabağda antiterror əməliyyatı keçirə və orda qalmış erməni hərbi tör-töküntülərini məhv edə bilər. Amma Azərbaycan son anda, yəni sözün işləmədiyi yerdə silah işlədir. Ona görə də hələ ki danışıqlar yolu ilə Ermənistanla sülh müqaviləsinin imzalanmasına üstünlük vermişdir. Əgər Ermənistanın təxribatları yenidən davam edərsə deyə bilərəm ki, bu, sözün gücünün bitdiyi nöqtəsi olacaqdır və Azərbaycan növbəti antiterror əməliyyatı keçirə bilər.

***Gülyana***

# RSK Qarabağ ermənilərinin yeni Laçın yolundan istifadəsinə qadağa qoydu?



## *Azərbaycanın Qarabağda istədiyi an və istədiyi şəkildə antiterror əməliyyatları keçirməsinə hüququ və gücü var*

Sentyabrın 12-dən 13-ə keçən gecə Ermənistan ordusunun əsasən Kəlbəcər və Laçın rayonlarının sərhəd xətti boyu törətdiyi silahlı təxribatları nəticəsində baş verən eskalasiya və düşmənin çoxsaylı itkisinin ardınca Qarabağ separatçılarının da canlarına vəlvələ düşməyə başlayıb. Məlum olub ki, artıq mövcud olmayan köhnə Laçın ”dəhlizi” deyilən ərazilərə alternativ olaraq məhz Azərbaycan dövləti tərəfindən çəkilən yeni yolda erməni separatçıları rahat hərəkət edə bilmirlər.

Erməni mətbuatının iddiasına görə, rusiyalı sülhməramlılar onlara ”ciddi zərurət və ya ehtiyac olmadan” Xankəndi-Şuşa-Gorus-İrəvan yolu ilə hərəkətdə olmamağı tövsiyə edib.

Daha dəqiq desək, bu barədə erməni KİV-ləri də informasiya yaymağa başlayıblar. Belə ki, Xankəndidə Rusiya sülhməramlıları kontingentinin (RSK) himayəsində qalan erməni separatçı-quldur yığnağı bu yoldan istifadəni həyatlarına təhlükə hesab edirlər. Üstəlik, bu barədə RSK rəhbərliyi də onlara xəbərdarlıq edib. Erməni mətbuatının iddiasına görə, rusiyalı sülhməramlılar onlara ”ciddi zərurət və ya ehtiyac olmadan” Xankəndi-Şuşa-Gorus-İrəvan yolu ilə hərəkətdə olmamağı tövsiyə edib. Müraciət həm də ona əsaslandırılır ki, yolun müxtəlif hissələri hərbi əməliyyatların aparıldığı yerlərin yaxınlığında yerləşdiyindən nəqliyyatın hərəkəti üçün təhlükəli ola bilər və s...

Ermənistanın və ya Xankəndindəki separatçı rejimin buna görə dünyaya hay-haray qaldırıb Azərbaycanı ”qınaq” obyektinə çevirməyə nə mənəvi, nə hüquqi haqları mövcuddur

Lakin fakt budur ki, təhlükə bilavasitə separatçı və qanunsuz silahlıların özlərindən gəlir və eyni zamanda, Ermənistanın və ya Xankəndindəki separatçı rejimin buna görə dünyaya hay-haray qaldırıb Azərbaycanı ”qınaq” obyektinə çevirməyə nə mənəvi, nə hüquqi haqları mövcuddur. Və daha yaxşı olardı ki, RSK bu amilləri nəzərə almaqla qanunsuz silahlı rejimin tərksilah olunması üçün daha səmərəli fəaliyyət göstərsin. Əks halda, Azərbaycanın Qarabağda istədiyi an və istədiyi şəkildə antiterror əməliyyatları keçirməsinə hüququ və gücü var.

***Rövşən RƏSULOV***

SİYASİ RAKURS

# ”Oy, moroz, moroz”... bu dəfə Solovyovun ifasında...

***...Gərək ki, yadınızda olar, bu yaxınlarda üzündə qançır və sıyrıqlarla canlı televiziyaya çıxaraq rusları "şoka salan" teleaparıcı Vladimir Solovyovun, deyəsən, zədələri bir balaca düzəlib. Əslində buna "tam sağaldı" demək də olmaz, amma, nə isə...sözümüz onda deyil.***



Deməli, ötən gün həmən o tam sağalmamış sifətiylə özünün ”Vladimir Solovyovla tam ələqə” verilişinin efirinə çıxan Volodiya rusların məşhur ”Oy, moroz, moroz” mahnısını pəsdən olmasa da, hər halda oxumağa çalışıb.

Təbii ki, Solovyova baxanlar onun bu oxumasını müxtəlif yerlərə yozublar. Kimi bunu onun qançırlarını sağalmasıyla, kimi də ki, Solovyovun Rusiya Müdafiə Nazirliyinin sözçüsü İqor Konaşenkovdan hansısa xoş xəbər eşitməsiylə əlaqələndirib.

...Sizi bilmirəm, amma mən belə düşünürəm ki, Solovyov bu çastuşkanı oxumaqla Qərbə gözdağı vermək istəyib, yəni demək istəyib ki, qabaqda morozlu qış gəlir...sizinsə qazınız yoxdur. Qısası, Solovyov demək istəyib ki,..ey Qərb əhli, axırınız çatıb, gələn yaza çətin çıxasınız...çünki evinizdə rus qazı yoxdur.

...Yenə deyəsən, gözüm ”sataşdı”. Solovyovun üzündəki qançır və sıyrıqlara deyirəm ey! Demişdim danışmayacam, amma xətərin, guya Alla Puqaçova tərəfindən yetirildiyini eşidəndən sonra özümü saxlaya bilmədim. Çünki Alla xanım elə qabiliyyət sahibi deyil ki, Solovyov kimi birisinə...yenə də nəyimizə gərək.

...Hə, sən demə, məsələ bu günlrdə məlum olub. Belə ki qalmaqallı köşə yazarı kimi tanınan Otar Kuşanaşvili Solovyovun sifətindəki qançırmalarda əli olduğunu etiraf edib...necə deyərlər, ”halal olsun!”

***Ağasəf Babayev***

# Erməni politoloq: "Rusiyanın çıxış yolu Cənubi Qafqazdan keçir"

*Aleksandr İskandaryan: "Türkiyə-Rusiya və İran-Rusiya münasibətləri Ermənistan və Azərbaycan arasında olan proseslərə təsirlərini göstərir"*

"Ermənistanın və Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatına (ŞƏT) dəvət edilmələri onunla bağlıdır ki... coğrafiya maraqları müəyyən edir". SİA xəbər verir ki, sözügedən fikirləri news.am saytına erməni politoloqu Aleksandr İskandaryan deyib. Onun sözlərinə görə, Türkiyə-Rusiya və İran-Rusiya münasibətləri Ermənisttan və Azərbaycan arasında olan proseslərə təsirlərini göstərir. Ona görə ki, Rusiya-Qərb kommunikasiyaları dayandırılıb, siyasi məsələlərlə bağlı çətinliklər yaranıb: "Əgər Çindən danışarsaq, bu zaman Rusiyanın orada da problemləri var. Belə çıxır ki, yeganə qalan yol Cənubi Qafqazdan keçir. Rusiyadan Gürcüstana gedən yol kifayət qədər çətindir, Azərbaycan üzərindən isə logistik xarakterli problemlər var. Bütün bunlar qarşıda dayanan məsələnin qiymətini artırır. Həm də belə hesab etmək olar ki, RF-nın Qərbə başqa yolları yoxdur və bütün bunlar Rusiya üçün iqtisadiyyat cəhətdən, həm də siyasi cəhətdən böyük əhəmiyyət kəsb edir...".

### "İranın məhdud imkanları var və bu da ölkənin ATƏT-də və s. təşkilatlarda təmsil olunmaması ilə bağlıdır"

İskandaryana görə, Cənubi Qafqaza kommunikasiya xətti kimi daha böyük diqqət göstərilə bilər. Lakin Türkiyə və İran arasındakı ziddiyyətlər hər zaman mövcud olub və həmin maraqların üst-üstə düşməsini təsəvvürə gətirmək çətindir: "İran ancaq son anda Ermənistanla sərhədlərin yox olmasına razı ola bilər. Bu ciddi faktordur, lakin İranın məhdud imkanları var və bu da ölkənin ATƏT-də və s. təşkilatlarda təmsil olunmaması ilə bağlıdır".




Erməni politoloqu İranın heç vaxt kəskinləşməyə aparacaq siyasətə əl atmayacağını bildirib və ehtimal edib ki, situasiya da bu cür qalacaq, sadəcə rəqabət mövcud olacaq.

### "Ərdoğan balansı dəqiq anlayır..."

Aleksandr İskandaryan Ərdoğanın sözügedən istiqamətdə apardığı siasətə də toxunaraq bildirib ki, Türkiyə eyni zamanda bir neçə kart masalarında oyun qurub və bu oyun Yunanıstandan Ermənistana qədər olan əhatəni tutur: "Ərdoğan balansı dəqiq anlayır, ona görə də Suriyada, Qarabağda olduğu kimi İranda da bənzər hadisələrin yaşanmasını təsəvvür etmək çətindir".

### "Bizim region Rusiya ilə İran, Çinlə Avropa arasında yerləşir"

"Ermənistanla Azərbaycanın ŞƏT-in sammitinə dəvət almaları isə onunla bağlıdır ki, bizim region Rusiya ilə İran, Çinlə Avropa arasında yerləşir və bi coğrafiya maraqları müəyyən edir. Anlaşılan budur ki, yumşaq desək, ziddiyyətlər az deyil, belə ki, ŞƏT-ə eyni anda Hindistan və Pakistan, Hindistan və Çin, Pakistan və İran da daxildirlər ki, onların arasındakı ziddiyyət tavandan da yüksəklərdə dayanır", deyə erməni eksperti bildirib.

***Rövşən RƏSULOV***

# "Onlar bu qədər şərəfsiz, vicdansız və əclafdırlar"



"Sentyabrın 13-də saat 00:15-dən başlayaraq Ermənistan qoşunları Kəlbəcər, Laçın, Zəngəzur, Daşkəsən istiqamətlərindən Azərbaycan Ordusunun mövqelərinə iri çaplı silahlardan atəş açmağa başlayıblar. Azərbaycan Ordusu da bunun layiqli cavabını verdi. Ermənilərin aylardır sərhəddə törətdiyi təxribatlar səbəbindən nəticənin belə olacağını gözləyirdik. Onlar nə zaman hücuma keçəcəklərini bilirdilər". Bu sözləri SİA-ya açıqlamasında siyasi ekspert Elşad Həsənov deyib.

EKSPERT

Onun sözlərinə görə, ermənilər bu təxribatı ona görə törədirlər ki, avqustun 31-də Paşinyan Brüsseldə üçtərəfli görüşdə iştirak etdi və orada razılaşdırıldı ki, bir ay müddətində XİN nazirləri görüşsünlər, sülh müqaviləsinin mətni hazırlansın, yenidən noyabrda Brüsseldə görüş keçirilsin: "Həmin görüşdən qayıdandan sonra Paşinyan Rusiya prezidenti ilə əlaqə saxladı. Mirzoyan isə Moskvaya çağırıldı, Lavrovla əlaqə saxladı, görüşdü, sonra Moskvadan gələn Vardanyan Rusiya vətəndaşlığından çıxıb gəlib Xankəndində yaşayacağını və oranı dirçəldəcəyini bildirdi. Bu yeni bir proyektdir. Bunu politoloqlar və siyasi ekspertlər qiymətləndirirlər ki, Paşinyanın devrilməsi üçün onun yerinə Rusiya tərəfindən hazırlanan yeni bir namizəddir".

Elşad Həsənov sözlərinə belə davam edib: "Ermənistan daxilində sabitliyin olmaması, müxalifətin Paşinyanı hakimiyyətdən yıxması və eyni zamanda xaricdəki erməni lobbisi Paşinyanın sülh müqaviləsi bağlamasına razı olmadıqlarına görə belə bir təxribat törətdilər. Bu təxribat nəticəsində də artıq bizdə də itkilər var. 50 şəhid vermişik, ancaq ermənilərdən itkilər daha çoxdur. 150-200 nəfər arası, hətta 300 nəfərə yaxın olması haqqında da erməni mətbuatı yazır.



Bu gün də yenidən erməni tərəfi bizə atəş açıblar, atəşkəsi pozublar və öz mətbuatları onların müdafiə nazirinin yaydığı bəyanatda göstərir ki, guya Azərbaycan yenidən onlara hücum edib. Yəni, bunlar bu qədər şərəfsiz, vicdansız və əclaf insanlardır. Özləri hadisəni törədir və onu da Azərbaycanın adına çıxardırlar. Biz bilirik ki, bunu monitorinq edən Rusiya-Türkiyə qrupu var. Mən elə güman edirəm ki, onlar öz analizlərini, ekspert rəylərini verəcəklər.

Bildiyiniz kimi bu gün BMT-də Fransanın təşəbbüsü ilə təhlükəsizlik şurası Ermənistanla Azərbaycan sərhədində baş verən insidentlə əlaqədar toplanır və onların hansı məsələlər qəbul edəcəyi hələ məlum deyil. Ancaq bircə bildiyim odur ki, BMT-nin Təhlükəsizlik Şurasının 4 məlum qətnaməsi 29 il təsirsiz qaldı. BMT-nin əlində heç bir təsir dairəsi yoxdur ki, həmin onun qəbul etdiyi hansısa qərar yerinə yetirilsin. Bizim 4 qərar yerinə yetirilmədi. Müzəffər Azərbaycan Ordusunun rəşadəti sayəsində həmin qərarlar yerinə yetirildi.

Çox təəssüf ki, bizim 50 nəfər şəhidimiz var. Onların hər biri bizim üçün çox dəyərlidir. Allah onlara rəhmət etsin. Ailələrinə səbr diləyirəm, xalqımıza başsağlığı verirəm və bunun nəticəsi təbii ki, Ermənistan üçün çox ağır olacaq. Ermənistan artıq sülh müqaviləsindən qaçmağa, bu məsələni uzatmağa çalışır. Bu da təbii ki, təkcə Ermənistanın yox, onların havadarlarının planlarıdır. Ancaq indiki müasir Azərbaycan dövləti qardaş Türkiyə ilə buna yaxın zamanda son qoyacaq. İşğal altında olan digər torpaqlarımız da azad olunacaq, Azərbaycan ərazisindəki digər yaraqlılar anti-terror tədbiri həyata keçirib məhv ediləcək. Azərbaycan öz sərhədlərini bərpa edəcək və Ermənistanı sülhə məcbur edəcək".

***Ayşən Vəli***



## Azərbaycan ilə Ermənistan arasında Çin səddi çəkilməlidir

**Mətanət MƏMMƏDOVA**

***İndi ki, torpaqsız, yersiz-yurdsuz erməni adlı ünsürə vaxtilə yazığımız gəlib, ürəyimiz yanıb, gətirib onu süfrəmizin kənarında əyləşdirmişik, çörək verib qarnını doyuzdurmuşuq, paltar verib eybini örtmüşük, onlar da dirçəlib bizimlə torpaq iddiasında olublar, deməli, günah özümüzdədir. Sonra da görüblər ki, bunlar xəyanətdə, satqınlıqda istifadə vasitəsi kimi ələkeçməz ünsürlərdir, havadarları yaranıb və həmin havadarlar bizdən torpaq qoparıb verib onlara, bunları "torpaqlı" edib.***

Nəticə belə olub ki, bu qonşuluqdan kənar olmuş erməni özümüz özümüzə qonşu etmişik. Elə bu zaman qara alın yazımız yazılıb. O mənada ki, bütün dünyanı qarış-qarış gəzən, lakin yaxına buraxılmayan erməni axırda gəlib bizim burnumuzun dibində binə olub. İndi baxın, bu dünyanı gəzənlərə heç kim qapısını açmayıb, çünki onlar ağıllı, ürəyidaş davranıblar, bu ünsürləri yaxına buraxmayıblar. Biz isə ürəyimizin kövrəkliyinin bəlasını hələ də çəkməkdəyik.

Budur əsrlərdir ki, əl çəkmirlər bizdən. İlahi, yaratdığın nə qədər acgöz, tamahkar olarmış? Görəsən bu ünsürlər yarananda İlahi-pərvərdigarın qanı nə üçün bu qədər qara olub ki, onları belə murdar yaradıb?

Nə istəyirlər bunlar bizdən? Nə üçün çəkilib oturmurlar dəni ellərdən, suyu gözəllərdən olan "torpaqlarında"? Belə də dərdmi olar? 1906-1907-dən, 1918-1920-dən danışaq, 1948-1953-dən, 1988-1993-dən danışaq? Hansının soyqırımlarından, dünyada bənzəri olmayan faciələrindən, erməni tamahkarlığından, xislətindən, murdarlığından, bədnamlığından söhbət açaq?

Yoxsa, 2020-ci ildə yeni torpaq iddiasında olmalarından söhbət açaq? 30 ildə minaladıqları torpaqlarımızdanmı, daşı daş üstündə qoymadıqları rayon, şəhər, kəndlərimizdənmi, məscidlərimizə bədnam münasibətlərindənmi, yoxsa qəbiristanlıqlarımıza, təbii sərvətlərimizə yanaşmalarındanmı danışaq?

Bunlar dövlətimizin başçısının da dediyi kimi, vəhşi qəbilədirlər. Bunların dünyada başına bizim kimi od yağdıranlar tarixən çox olub, lakin xislətlərini dəyişən olan bilməz. Elə başlarının yarası sağalan kimi ayağa qalxıb həmin ünsürlər olacaqlar.

Elə bütün bu səbəblərdən də qonşuluqdan kənar olmuşları, sözün həqiqi mənasında, özümüzdən kənar etməliyik. Biryolluq. Bütün xalq bu münaqişələr başa çatan kimi Azərbaycanla Ermənistan arasında Çin səddi çəkməyə cəhd etməlidir. Hərə bir daş qoysa, bunu edə biləcəyik. Bunu etməliyik, erməni üzünü əbədi görməmək üçün etməliyik. Bunun üçün tarix də, zaman da bizi alqışlayar, gələcək nəsillər isə ruhumuzu hər zaman minnətdarlıqla anar.

# "Təkcə futbolçuları deyil, kosmonavtları da müalicə etmişəm"

## "Neftçi-Ararat oyunu günü Banişevski xəstələndi və oyuna çıxa bilmədi, amma buna baxmayaraq biz qalib gəldik"

***Boris Xetaqurov Azərbaycanda idman təbabətinin əfsanəsidir. O, ömrünün 50 ilinə yaxınını Bakının "Neftçi" futbol klubuna həsr edib. Boris Nanieviç klubun bir hissəsi olmaqla Sovet dövründə "Neftçi"nin əsas nailiyyətini - 1966-cı il SSRİ çempionatının bürüncünü görmüşdür.***



O, müstəqillik dövründə "Neftçi"nin əsas uğurunun - 2012-ci ildə Avropa Liqasının qrup mərhələsinə yüksəlməsinin də şahidi olub. Bir neçə il əvvəl Xetaqurova "Bakinets" Beynəlxalq Mədəniyyət Cəmiyyətinin nüfuzlu milli mükafatı - "Humay" mükafatına layiq görülüb. "Moskva-Bakı"nın müxbiri Azərbaycanın əməkdar həkimi Boris Xetaqurovla həmsöhbət olub, o, palatasının idmançıları ilə bağlı xatirələrini bölüşüb, həm də rus aktyoru və kosmonavtı necə müalicə etmək şansı olduğunu danışıb. Müsahibəni oxucularımıza təqdim edirik.

**- Siz həkim ailəsindənsiniz. Bu səbəbdənmi idman tibbini seçdiniz? Seçiminizə nə təsir etdi?**

- Mən Böyük Vətən Müharibəsi başlamazdan bir il əvvəl Bakıda anadan olmuşam. Gənclik illərim Bakının köhnə, el arasında Çəmbərəkənd adlanan yerində keçib. 6 saylı orta məktəbdə oxuyub. Atam həkim olub, Azərbaycan SSR səhiyyə nazirinin müavini, Respublika xəstəxanasının baş həkimi işləyib. "Azərbaycanın əməkdar həkimi" fəxri adına layiq görülüb. Anam diş həkimi, bacım pediatr idi. Çəmbərəkənd yaxşı idmançıları ilə məşhur idi. Bu Bakı məhləsində məşhur futbolçular Ələkbər Məmmədov, Əli Əbilzadə, Çingiz İsmayılov, basketbolçular Məmmədyarov qardaşları - Əliyar, Qəhrəman və Fuad, damaçı Üzeyir Abdullayev yaşayırdı.

İdmanla- atletika ilə də məşğul olurdum. "Dinamo" cəmiyyətində SSRİ-nin əməkdar məşqçisi Əfqan Səfərovun yanında məşq edirdim. Şəhər və respublika müsabiqələrində, tibb universitetləri tələbələrinin ümumittifaq yarışlarında iştirak etmişəm. Orta məktəbdə valideynlərimin yolu ilə getməyə qərar verdim və Nəriman Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil oldum. Təhsil aldığım müddətdə idman təbabəti ilə maraqlanırdım. Bunu görən kafedra müdiri, professor Kamal Axundov institutu bitirdikdən sonra tibb elminin bu sahəsi ilə ciddi məşğul olmağımı tövsiyə etdi. Kamal Axundov Azərbaycan idman təbabətinin yaradıcılarından biri olub, vaxtilə "Neftçi" futbol komandasının həkimi olub. Mənim idman həkimi kimi yetişməyində onun böyük rolu olub.

Mən futbola necə gəldim? 1964-cü ildə tibb fakültəsini bitirəndə Almaniyada Sovet qoşunlarının bir qrupuna polk həkimi təyin olundum. Amma sənədlərim işlənərkən hərbi hissəmi ixtisar etdilər. "Azad" diplom aldım, ona görə də iş yeri ilə özüm məşğul olmalı idim. Şanslıydım. Çəmbərəkənddəki qonşum, "Neftçi"nin baş məşqçisi Ələkbər Məmmədov məni gənclərdən ibarət futbol komandasında işləməyə dəvət etdi. Bu, 1965-ci ilin aprelində oldu, 1966-cı ilin yanvarında isə məni "Neftçi"nin əsas komandasına baş həkim kimi qəbul etdilər. Həmin vaxt moskvalı Vasili Sokolov "Neftçi"nin baş məşqçisi idi.

**- İdmançı üçün zədədən xoşagəlməz heç nə yoxdur. "Neftçi"nin futbolçuları əsasən hansı zədələrlə üzləşirdi?**

- Əlbəttə, idman təkcə qələbə deyil, həm də zədədir. Yadımdadır, Alma-Atada "Neftçi" - "Kayrat" matçında futbolçumuz Elbrus Abbasov ayağından necə ciddi zədə almışdı. Onda biz Birinci Liqada oynayırdıq və Yüksək Liqaya çıxmaq üçün mübarizə aparırdıq. Rəqabət çətin idi. Oyun arası fasilədə Elbrus məni çağırıb dedi: "Doktor, ayağıma bax". Butsılarını çıxardım və gördüm ki, onun bütün ayağı qan içindədir. Elbrus dərin kəsilmiş yara almıdı. Mən ona dedim: "Sən belə oynaya bilməzsən. Baş məşqçiyə deyəcəyəm ki, səni əvəz etsin". Elbrus xahiş etdi: "Doktor, yalvarıram, heç nə demə. Elə et ki, meydançaya çıxıb matçı sona qədər oynayım. Mən ona cərrahi tikişlər vurmalı, ayağını ağrıkəsici ilə yumalı, səkkiz formalı sıx sarğı vurmalı idim. Oyundan sonra məşqçi Gennadi Bondarenko Elbrusun oynadığı vəziyyəti görəndə dəhşətə gəldi. Elbrus çox cəsarətli və israrlı idmançı idi.

**- 1967-ci ildə "Neftçi"-"Ararat" oyunun başlamasına bir neçə saat qalmış Banişevski appendisit diaqnozu ilə xəstəxanaya yerləşdirildi. Komandanın ən yaxşı oyunçusunun meydanda olmayacağı xəbərini futbolçular necə qarşıladı?**

- Onda "Neftçi" SSRİ çempionatında Yerevanın "Ararat" komandası ilə oynamalı idi. Matçdan bir gün əvvəl komandamız məşq bazasına köçdü və səhər saat 5-də Tolik qapımı döydü. Astanada dayanıb ağrıdan qıvrılır. Onu yerə qoydu və araşdırdı. Məlum olub ki, o, kəskin appendisit tutması olub. Təcili yardım çağırdım. Həkimlər onu dərhal Semaşko xəstəxanasına aparıblar. Vaxtilə idmanla fəal məşğul olan növbətçi həkim Məmməd Əliyev dərhal Toliki əməliyyat masasına göndərdi. Baş məşqçimiz Əhməd Ələsgərovu yuxudan oyatmalı, bəd xəbəri ona deməli oldum. Bir neçə dəqiqədən sonra o, xəstəxanada idi. Təbii ki, Banişevskinin hansısa oyunundan söhbət gedə bilməzdi. Yadımdadır, oyunun başlamasına bir saat qalmış Kazbek Tuayev paltardəyişmə otağına girərək futbolçularımıza üz tutdu: "Uşaqlar, Tolik bu gün burada olmayacaq. Və qələbə üçün hər şeyi etməliyik- Tolikin xatirinə. Və uşaqlar bunu etdilər. "Neftçi" qalib gəldi - 1:0. Qolu Markarov vurdu.

**- Hətta bir dəfə "Neftçi"də futbolçu kimi oynamaq şansınız olub. Həmin oyun haqqında bizə məlumat verin. Butsıları geyinib meydançaya çıxanda hansı hissləri yaşadınız?**

- 1967-ci ildə SSRİ çempionatı başa çatdıqdan sonra "Neftçi" Afrikada 3 ölkədə - Mali, Seneqal və Qvineyada yoldaşlıq oyunlarına getdi. 8 oyun keçirdi. Çox çətin idi. Biz Moskvadan uçduq, orada mənfi 15 dərəcə idi, Afrikaya uçduq və orada 40 dərəcə istilik, yüksək rütubət və dözülməz şərait var idi. Üçüncü oyunu Malidə keçirdik, burada iki futbolçumuz Edik Markarov və Volodya Bruxtiya ciddi zədə aldılar. Onları Moskvaya, sonra da Bakıya göndərməli oldum. Və məlum oldu ki, Seneqal millisi ilə oyuna 11 futbolçu yığılmır. Meydana çıxıb baş məşqçi Əhməd Ələsgərov və özüm üçün oynamalı idim. Həyəcan var idi təbii ki. Axı mən futbolçu deyiləm, amma komanda yoldaşlarım iddia edirdilər ki, yaxşı oynamışam. Bu oyunda 6:2 hesabı ilə qalib gəldik. Həmin Afrika səfərində Moskvadan olan jurnalist Aleksandr Kuleşov da bizimlə idi. O, "Bədən Tərbiyəsi və İdman" jurnalında həmin hadisə ilə bağlı yazırdı: "Həkim Xetaqurov zədəli futbolçulara qayğı göstərməyin ən yüksək nümunəsini göstərdi - sadəcə, onların yerində dayandı...".

**- 1978-ci ildə sizin "Neftçi" futbol komandasının tibb məntəqəsi SSRİ-nin futbol komandaları arasında ən yaxşısı kimi tanınıb. Yeddi il sonra SSRİ İxtiralar və Kəşflər üzrə Dövlət Komitəsindən "Fiziki performansı artırmaq üçün cihaz" texnikası üçün müəlliflik sertifikatı aldınız. Bu cihaz nə idi?**

- Bəli, yadımdadır, o zaman bizə fəxri fərman və "Bullur kubok" verildi. O vaxt köməkçim Murad Mərdanovla futbolçuların fiziki göstəricilərini artıran xüsusi cihaz ixtira etdik. Bu, kənarlarına iynələr daxil edilmiş dəyirmi yarımkürəvi rezin hava kamerasıdır. Cihaz pnevmomasaj prinsipinə uyğun olaraq yorğun əzələlərə yerli olaraq təsir göstərir. Onun əməyi sayəsində idmançının sağalması daha tez və asan olur.

**- Aktyorları, hətta kosmonavtları belə müalicə etməli idin. Maraqlıdır, idman həkimi bu işin öhdəsindən necə gəldi?**

- 1977-ci ilin iyununda Moskvanın "Sovremennik" teatrı Bakıda qastrol səfərində idi. Musiqili Komediya Teatrında tamaşalar göstərilirdi. Bir axşam "Sovremennik"in administratoru mənə zəng edib dedi ki, tamaşa zamanı onların aktyoru İqor Kvaşa ayağından zədə alıb: "Ayaq şişmişdi. Antensiya zamanı təcili yardım gəldi, donub qaldılar. Ancaq Kvaşa qərar verdi - idman zədəsini futbol komandasının həkimindən daha yaxşı kim bilir? Biz təcili olaraq nəsə etməliyik, çünki əsas rol İqordadır. Mən teatra tələsdim və lazımi köməkliyi göstərdim. Aktyor tamaşanı sona qədər oynadı. Bundan sonra onu 3 nömrəli şəhər poliklinikasında yerləşən növbətçi travma mərkəzinə apardım. Ayağının rentgenoqrafiyasını çəkdilər. Xoşbəxtlikdən zədə o qədər də ciddi deyildi. Amma təbii ki, müalicə etmək lazımdır. Kvaşa bir həftə ərzində hər gün dostu Valentin Qaftla "Neftçi" futbol komandasının bazasında yerləşən tibb kabinetimə gəlirdi. Danışdıq, zarafatlaşdıq. Minnətdarlıq edərək hətta futbolçularımızın qarşısında çıxış etdilər.

Uzun müddət İqor Kvaşa ilə dostluğum davam etdi. Komandamla Rusiyanın paytaxtında olarkən bir neçə dəfə məni Moskvadakı çıxışlarına dəvət etmişdi və özü də "Neftçi"nin oyunlarına gəlmişdi. Kvaşa futbolun böyük pərəstişkarı idi. 2013-cü ildə tanışlığımızın 35-ci ildönümündə Kvaşa üçün Moskvaya onun adı yazılmış çempion köynəyi və tanışlığımızı xatırladığım məktub göndərdim. Amma təəssüf ki, hədiyyəm çox gec olmuşdu. Həmin vaxt İqor Vladimiroviç ağır pnevmoniya ilə xəstəxanada imiş və bir neçə gün sonra dünyasını dəyişmişdi. Mən kosmonavt Vitali Jolobovu müalicə etməli oldum. O, Bakı şəhəri 164 saylı orta məktəbi və Azərbaycan Neft və Kimya İnstitutunu bitirib. 1976-cı ildə kosmosa uçuşu başa vurduqdan sonra Bakıya məzuniyyətə gəlir. Kosmik gəminin sərt enişi zamanı aldığı zədədən bel nahiyəsində problemlər var idi. Və bir neçə gün Vitali "Neftçi" komandasının tibb məntəqəsində müalicə olunmaq üçün yanıma gəldi. Məndən futbol haqqında soruşdu, mən ondan kosmos haqqında.

**- Bu yaxınlarda 82 yaşınız tamam oldu, indi də sıralardasınız. Belə səmərəliliyin sirri nədir?**

- Məşhur mahnıda deyildiyi kimi: "İllərim mənim sərvətimdir". Maraqlı hadisələrlə, qələbələrlə dolu xoşbəxt həyat sürmüşəm. Azərbaycanın ən yaxşı futbol komandası olan "Neftçi" ilə işləmək mənə qismət olub. 2004-cü ildə "Xəzər-Lənkəran"ın yeni yaradılmış komandasında tibbi xidmətin lazımi səviyyədə təşkili üçün Lənkərana dəvət olundum. Klub nümayəndələri ilə Moskva, Dubay, İstanbula getdik və ən müasir tibbi avadanlıq aldıq. Avstriya və Almaniyada lazımi vitamin və bərpaedici preparatlar alındı. Assistentlərimi Moskva və İstanbuldakı təkmilləşdirmə kurslarına göndərdim. Bir sözlə, Xəzər-Lənkəranda o vaxt Azərbaycan futbol komandaları arasında ən yaxşısı olan peşəkar tibb mərkəzi yaratdılar.

2010-cu ildə ailəvi səbəblərdən komandanı tərk etməli oldum. Ailədən uzun müddət uzaq qala bilməzdim. Daha sonra "Neftçi"nin prezidenti Sadıx Sadıxovun dəvəti ilə bu komandaya baş həkim kimi qayıtdım. Karyeramı başladığım komandada - doğma "Neftçi"də davam etdirmək imkanı yaratdığı üçün Sadıx müəllimə ürəkdən minnətdaram. 2015-ci ilə kimi orada işləmişəm. Klub rəhbərliyi dəyişdikdən sonra o, karyerasını bitirmək qərarına gəldi. Amma indiyə qədər futbolçular mənə müraciət edirlər və heç vaxt heç kimdən imtina etmirəm. Mənim işimin sirri nədir? Heç bir sirr yoxdur. Mən işimi sevirəm, futbolu sevirəm və ölkəmə dərindən bağlıyam.

**- Azərbaycan futboluna nə arzu edərdiniz? Doğma "Neftçi"ni necə görmək istərdiniz?**

- Sevimli komandamı Avropa və dünya çempionatlarında görmək arzusundayam. "Neftçi" mənim ikinci ailəmdir və mən son dərəcə şadam ki, ölkənin ən yaxşı futbolçuları və məşqçiləri ilə işləmək imkanım olub. "Neftçi" mənim fəxrimdir və inanıram ki, bir gün bu komanda yenidən Azərbaycan futbolunun flaqmanı olacaq.

***Tərcümə - Elçin Bayramlı***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük "Vətən Müharibəsi"ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması" istiqaməti çərçivəsində hazırlanıb.*

# Qəhvə hansı xəstəliklərin müalicəsinə kömək edir?

***“Azərbaycan xalqında qəhvə içmək adəti olmadığı üçün genetik olaraq o qədər də kodlaşdırılmamışdır. İnsan orqanizmində 8 yaşa qədər həm dad reseptorları formalaşır, həm də genetik olaraq həmin orqanizmə lazım olan maddələr, makro və mikro elementlər, eyni zamanda vitamin və minerallar 8 yaşa qədər yediyi qidalar vasitəsilə formalaşır". Bu fikirləri SİA-ya açıqlamasında sağlam qidalanma mütəxəssisi Məhsəti Hüseynova deyib.***



Məhsəti Hüseynova bildirib ki, bu gün dünyanın 70-dən çox ölkəsində kofe yetişdirilir, kofe bu gün bir çox insanın əvəzedilməz içkilərindən biridir: "Amma kofe içərkən həm onun miqdarına, həm də zamanına diqqət yetirməliyik. Tərkibində olan kofin maddəsi insan orqanizminə içtikdən 15 dəqiqə sonra təsir edir və insan özünü enerjili, gümrah hiss edir. Bu hissi mütəmadi olaraq yaşamaq istəyən şəxs kofedən asılı olur. Gün ərzində 1-2 fincan kofe içmək faydalıdır. Bəzən alzeheimer xəstələri belə kofedən müalicə üçün istifadə edir. Kofe qaraciyər xəstəliyi riskini azaldır, ürək-damar xəstəliklərində infarktın qarşısını alır, bronxial astma xəstəliklərinə faydaları var, eyni zamanda kişilərdə cinsi istəyi artırır. Kofenin immuniteti gücləndirmə xüsusiyyəti də var, həzm sistemini gücləndirdiyi üçün bağırsaqlarda hərəkətliliyi artırır. Bu faydaları əldə etmək istəyiriksə kofeni düzgün istifadə etməliyik. Əlbəttə ki, kofenin ziyanları da var. Qəhvədən mütəmadi olaraq istifadə etmək orqanizmdə olan maqneziumu, kaliumu, kalsiumu, B1, B6 vitaminlərini azaldır, diş çürüməsinə, sümüklərin əriməsinə səbəb olur. Qadınlarda yumurtalıqların funksiyasını azaldır. Hamilə qadınlarda qan dövranını sürətləndirdiyi üçün ilk həftələrdə kofedən istifadə etmək məsləhət görülmür. Çünki hamiləlik dövründə mütəmadi olaraq istifadə etmək erkən doğuşa ya da erkən düşüklərə səbəb ola bilər".

Mütəxəssis həmiçinin əlavə edib ki, bir çox hallarda kofeyə əlavələr qatılır ki, bunlar süd, şəkər, qaymaq bəzən isə kremdir:"Bunlar həzm sisteminin pozulmasına və həddindən artıq kolori almağa səbəb olur. Yaxşı olar ki, kofeni sadə olaraq istehlak edək. Gün ərzində 1-2 fincandan artıq içilməsi məsləhət görülmür. Səhər yeməyindən 1 saat- 1 saat yarım sonra içilməsi məsləhətlidir. Aç qarnına kofein içilməsi tövsiyyə olunmur. Aç qarnına kofe içmək həzm sistemində və mədə-bağırsaq sistemində problemlərə səbəb olur.

Bu gün insanlar tez hazır olsun deyə 3-ü birində kofelərdən istifadə edir. Amma bu kofelərdən istifadə tövsiyyə olunmur. Bu məhsulların tərkibində həddindən artıq kimyəvi qatqılar və dadlandırıcılar vardır".

***Abutel İlhamqızı***

# Tutuquşu pişiklə söhbət etdi, 50 milyon insan izlədi

***“TikTok"da paylaşılan tutuquşunun pişiklə söhbəti 50 milyon insan tərəfindən izlənilib. SİA xəbər verir ki, tutuquşunun bu görüntüləri sosial şəbəkələrdə yayılıb. Görüntülərdə tutuquşu pişiyi çağırdıqdan sonra kədərli sonluq baş verib. Sizi güldürən anlar kameraya belə əks olunub. Tutuquşunun yanına "Gəl pişik pişik" deyərək gələn pişik ona bir sillə vuraraq uzaqlaşıb.***




# Çempionlar Liqası: “Barselona” “pivəçilər”ə uduzdu




***Futbol üzrə UEFA Çempionlar Liqasında qrup mərhələsinin ikinci həftəsinin ilk gününə yekun vurulub.***

SİA xəbər verir ki, Avropa futbolunun ən önəmli klub səviyyəli təşkilatının A, B, C və D qruplarında 5 qarşılaşma keçirilib. C qrupunun maraqla gözlənilən matçında mövsümdən əvvəl "Barselona"ya transfer olunan polşalı hücumçu Levandovski keçmiş komandası "Bavariya" ilə üz-üzə gəlib. Ev sahibi "Bayern Münhen" 50-ci dəqiqədə Lukas Hernandes və 54-cü dəqiqədə Sanenin vurduğu qollarla 2:0 hesablı qələbə qazanıb. Qrupda 2-dən 2-yə çıxan "Bavariya" liderlik kürsüsünə oturub. "Barselona"nın 3 xalı var.

A qrupunda keçirilən görüşdə 17-ci dəqiqədə Salahın qolu ilə önə keçən "Liverpul"a "Ayaks" 27-ci dəqiqədə Kudusla cavab verib. 89-cu dəqiqədə qol vuran Matip "Liverpul"un meydandan 2:1 hesablı qələbə qazanmasına kömək edib. Ötən mövsümün finalçısı "Liverpul" xallarını 3-ə yüksəldib, "Ayaks" isə 3 xalda qalıb.

# Qəbizliyin qarşısını ən asan bu yolla ala bilərsiniz? - VACİB MƏQAMLAR

Qəbizlik bağırsaq hərəkətlərinin azalması ilə meydana gələn və boşalma sisteminin düzgün işləməməsi nəticəsində yaranan bir problemdir. Adətən təbii vasitələrlə keçən yüngül qəbizlik vəziyyətləri bəzən çox daha ağır formalara da gedib çıxa bilər. SİA sizə qəbizliyə müsbət təsir edən təbii üsulları təqdim edir.

**Hind yağı**
Bağırsaq əzələlərini yumşaldır və bağırsaq hərəkətlərini nizamlayır.

**Kivi**
Tərkibində bol lif olan kivi qəbizliyin qarşısını almağa yardımçı olur.

**Tərəvəzlər**
Qəbizlik vəziyyətində lifli qidalar yeməklə orqanizminizdə olan toksinləri ata bilərsiniz.

**Zeytun yağı içmək**
Zeytun yağının tərkibində olan köməkçi toksinlərlə qəbzlik probleminizi aradan qaldıra bilərsiniz. Gündə 2 dəfə içməyiniz kifayət edəcək.

**Ərik qurusu**
Səhərlər ac qarına bir stəkan suyu və 2-3 ədəd ərik qurusunu birlikdə yesəniz, həzm sisteminizi hərəkətə gətirə bilərsiniz

**Razyana çayı**
Bağırsaq hərəkətlərinizi tənzimləyən razyana, həzmi asan olduğundan qəbizlik probleminə qarşı təsirli bir vasitədir.

**Bal və isti su**
Balın faydaları saymaqla bitmir. Həzm sisteminə və qəbizliyə faydalı olan bal isti su ilə qarışdırılıb içildiyində qəbizliyi aradan qaldırmaq üçün təsirli bir vasitə halına gəlir.



# BİLİRSİNİZMİ?



Dünyanın ən sürətli qatarları Yaponiyadadır.

***

Atakama səhrasına 400 ildir ki, yağış yağmır. Yağan yağış isə havada buxarlandığından yerə düşmür.

***

Brazilyada məhbuslar hər oxuduqları kitaba görə azadlıqdan məhrum günlərinin sayını azaltmış olur.

***

Dünya tarixində ən ölümcül 10 döyüşdən 7 si Çində baş verib.

***

2050-ci ilə qədər şokaladın tükənmə təhlükəsi var. Belə ki, iqlimin dəyişməsi nəticəsində şokolad ağaclarının nəsli kəsilməkdədir.

***

İnsanlar oksigensiz 3 dəqiqə, susuz 3 gün və yemək yemədən 3 həftə yaşaya bilər.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 3600